İRFAN

№18-May 2008-İctimai fikir jurnalı-3 AZN

XX əsrdə Azərbaycan və
Türk Dünyasının memarı
HEYDƏR ƏLİYEV

SEVGİYƏ BÜRÜNMƏK
ŞƏFQƏTLƏ YOĞRULMAQ

KÖNÜL İNSANI OLMAQ

İRFAN
ictimai fikir jurnalı
Dövlət Reystr No: 1763

Direktor:
Salih Zeki MERİÇ

Təsisçi və redaktor:
Dr. Abbas QURBANOV

Məsul katib:
Nurlan MƏMMƏDZADƏ

Redaksiya heyəti:
Akademik Vasim MƏMMƏDƏLİYEV
Prof.Dr. Şahin XƏLİLLİ
Dr.Siracəddin HACI
Dr.Alpay MƏMMƏDOV
Eldəniz SALMANOV
Ramiz MƏMMƏDOV
Nurlan MƏMMƏDZADƏ
Səadət MÜRŞÜDOVA
Hacı Arif HEYDƏROĞLU
Rövşən QƏNİYEV
Akif HÜSEYNOV
Fuad QULİYEV

Abunə və reklam işləri:
Musa İBRAHİMOV
Tel: 0503254989

Kompyuter dizaynı:
İrfan Qrafik

Foto:
«İRFAN»

Ünvan:
Bakı şəhəri,
Cəfərov Qardaşları küç. 16
Tel: (+994 12) 492 32 23,
493 02 93

Abunə təmsilçiləri:
Bakı - Musa İbrahimov - 0503254989
Quba - İlkin Qaibov - 0503638145
Ağdaş - Şahin Rəhimov- 050 3887068
İsmayıllı -Vasif Teymurov-0504653601
Zaqatala - Mayıs Abbasov -0557476297
Əliabad - Kamran Məmmədov-0503806922
Şamaxı - Akif Hüseyinli-0506205928
Şəki - Vüqar Məmmədov-0556237232
Qəbələ-Saleh Şirinov-0503827823

İllik abunə qiyməti:
Ölkədaxili 25 manat
Xarici ölkələr üçün 35 USD
www.irfandergisi.com
E-mail
irfan@irfandergisi.com
irfandergisi@yahoo.com

Jurnalın materiallarından istifadə edərkən istinad zəruridir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

İRFAN'DAN

Millətlərin də taleyi var. Bir millətin var olma prosesində keçən zaman uzun illəri əhatə edər. Böyüyüb inkişaf etməsi, mədəniyyət halına gəlməsi bəzən yüzillər çəkər. İnsanlar keçmişləri ilə iftixar edər, millətlər də tarixləri ilə. Tarixdə necə bir keçmişə sahib olduğumuz bəzən içində yaşadığımız zaman kəsiyindəki duruşumuzu sərgilər. İrfan jurnalımızın da bir miladı var. Mütləq miadı da olacaq. Hər sayısı tarixə atılan imza kimi. Hər sayısı gələcək nəsillərə miras. Kimlərsə kin, nifrət, ədavət qoyub gedir, kimlərsə də sevgi, barış, qardaşlıq – var olmamızdakı qayənin əsası nədirsə onları qoyub gedir gələcək nəsillər üçün. Bundan sonra gələn nəsillərimizin bizdən iftixarla bəhs etmələri və keçmişlə qürur duymaları bu gün bizim necə bir tarix yazdığımızla bağlıdır. Bu sayımızı könül insanı portretinə ayırdıq.

Ən çox ehtiyac hiss etdiyimiz könül insanı.

Sevgisi ümmanlar kimi, mərhəmətinin qaynağı ilahi məfkurə.

Şair necə də gözəl deyir:

Onlar sevdimi umud kimi,
Sardımı çinar kimidirlər.

İdeal bir insan nümunəsi. Müasir insanın içindən çıxa bilmədiyi də budur əslində. Fədakar, isar sahibi, əlindəki hər şeyi təmənnasız verə bilən, dünyalıq qorxusu olmayan, sevgisində əngin, mərhəmətində sonsuzluq ümmanı kimi bir könül insanı.

Şübhəsiz ki, ən böyük könül insanı Allahın həbibim dediyi Rəsuludur. O, idealların da idealıdır. Peyğəmbər (s.ə.s)-in bir könül insanı modelindən onun ümməti olan bizlərin alacağı dərslər saysızdır.

Möhtərəm oxucular,

İrfan jurnalımızın bu sayısında da yenə bir-birindən gözəl yazılarla, reportajlarla qarşınıza çıxırıq. ***Ümummilli Liderimiz mərhum prezident Heydər Əliyevin, xüsusi olaraq Azərbaycan, ümumi olaraqsa Türk dünyası üçün memar olduğu və böyük dövlət xadimi olduğu nöqtəsində İrfan jurnalının hazırladığı bir yazı ilə salamlayırıq sizləri.*** Yenə ardınca ***Heydər Əliyevin 85 illiyi*** ilə bağlı bir yazı gəlir.

Möhtərəm könül insanı ***Osman Nuri Topbaş*** bəyin qələmə aldığı, şair ***Məmməd Aslanın*** Azərbaycan türkcəsinə uyğunlaşdırdığı "***Bir testi su"*** adlı kitabın ***"Mövlana Dərgahından Əsintilər"*** adı ilə ikinci nəşri İpək Yolu nəşriyyatı tərəfindən həyata keçirildi. Dəyərli şairimizlə bu kitabla bağlı gözəl bir reportajımız oldu.

Ana mövzunu ***Salih Zeki Meriç, Nurlan Məmmədzadə, Arif Heydəroğlu, Rüfət Şirinov yazdı. Lokman Helvacı*** keçən iki sayımızda yayınladığımız zikr mövzusuna hədislərin pəncərəsindən baxdı bu sayımızda.

Milli problemimiz, dərin yaramız və insanlıq aləminin ən böyük acılarının yaşandığı məsələ: ***Qarabağ*** – Sağalmayan yaramız. ***Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Füzuli və işğal altındakı digər rayonlar və yüz minlərlə məcburi kökçün…*** Qanayan yaramız. Sizin üçün ***Dr. Elsevər Səmədov, Dr. Abbas Qurbanov, Ramiz Məmmədov, Rövşən Qəniyev*** Qarabağla bağlı yazılar yazdılar. Şuşa Şəhər İcra Hakimi cənab ***Nizami Bəhənovla Qarabağ məsələsi haqda danışdıq.*** Zərrə qədər də olsa əməyimiz olar ümidi ilə.

Və digərləri; ***Prof. Dr. Şahin Xəlilli "Bayronun türk sevgisi"ni yazdı. Ali Çınar*** bəyin silsilə şəklində qələmə aldığı ***"Həcc təəssüratları"***nın davamını oxuyacaqsınız…Xüsusilə həccə getməyə niyyət edənlər üçün faydalı olduğunu ümid edirik.

Məmməd Məmmədzadə ailəcə yaxından tanıdığı, ədəbi varlığının formalaşmasında şeirlərindən qidalandığı ***Mikayıl Müşfiqi*** yazdı… ***Rəna Mirzəliyeva Gül bayramını anlatdı. Elşən Rzayev Maraq dünyası*** ilə qarşınıza çıxır.

Yenə dopdolu İrfan jurnalı…

Hər zaman gözəl günlərdə görüşmək ümidi ilə…

İÇİNDƏKİLƏR

ƏVƏZOLUNMAZ İNSAN HEYDƏR ƏLİYEV
Elşən RZAYEV.....7

İNSANLIQ DAĞININ ZİRVƏSİ OLMAQ
Nurlan MƏMMƏDZADƏ.....10

KÖNLÜMÜZDƏ KİNƏ YER YOX
Hacı Arif HEYDƏROĞLU.....12

KÖNÜLLƏR SULTANINI SEVMƏK
Rüfət ŞİRİNOV.....14

BU DA KEÇƏR YA HU!
Dr. İbrahim BAZ.....16

İZZƏTDƏN ZİLLƏTƏ
Ramiz MƏMMƏDOV.....18

HƏDİSLƏRDƏ ZİKR-1
Lokman HELVACI.....24

İBRƏT İSTƏYƏN VARMI?
Kamran MƏMMƏDOV.....32

GÜL BAYRAMI
Rəna MİRZƏLİYEVA.....33

MƏN DƏ Mİ BRUT?
Adem ŞAHİN.....34

TƏMİZLƏMƏ SİYASƏTİ, YOXSA BÖYÜK XƏYALLAR?
Dr. Abbas QURBANOV.....40

QUBA SOYQIRIMI TARİXİ HƏQİQƏTLƏR VƏ FAKTLAR
Dr. Elsevər SƏMƏDOV.....42

KƏLBƏCƏRƏ QONAQ GƏLƏCƏYƏM
Rövşən QƏNİYEV.....44

HƏCC TƏƏSSÜRATLARI-V
Ali ÇINAR.....46

BAYRONUN TÜRK SEVGİSİ VƏ İNTİQAMI
Prof. Dr. Şahin XƏLİLLİ.....48

DÜNYALI...
Dr. Rafiz MANAFOV.....50

HƏYATDAN DOYMAYAN
Məmməd MƏMMƏDZADƏ.....52

MARAQ DÜNYASI
Elşən RZAYEV.....55

XƏBƏR.....56

İÇİNDƏKİLƏR

XX əsrdə Azərbaycan və Türk Dünyasının memarı HEYDƏR ƏLİYEV 4

NEÇƏ KÖNLÜ FƏTH ETDİN, NEÇƏ KÖNLÜ VİRAN QOYDUN?
Salih Zeki MERİÇ 8

PEYĞƏMBƏR ƏXLAQININ SƏHABƏLƏRDƏKİ TƏZAHÜRLƏRİ-1
Osman Nuri TOPBAŞ 26

GÖRKƏMLİ ŞAİR MƏMMƏD ASLAN:
"MÖVLANA ƏN BÖYÜK KÖNÜL İNSANIDIR" 20

"Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyi"nin sədri, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı
Nizami Bəhmənov:
Qarabag Azərbaycanın mənəviyyat pasportu, Şuşa isə onun zümrüd tacıdır. 36

XX əsrdə Azərbaycan və Türk Dünyasının memarı HEYDƏR ƏLİYEV



Heydər Əliyev 20-ci əsrdə Türk dünyasının yetişdirdiyi ən önəmli dövlət xadimi və siyasətçisi kimi tarixə öz adını qızıl hərflərlə yazdırmışdır. ***Hələ ötən əsrin 80-ci illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyev öz şəxsiyyəti ilə türkçülük düşüncəsini SSRİ kimi nəhəng imperiyanın ən ali iyerarxiyasına qədər gətirib çıxarmışdır.*** Kremldən dünyanın böyük bir coğrafiyasının taleyini müəyyən edən bir neçə nəfər arasında Heydər Əliyev yeganə türk idi. ***O, türk dünyasının birliyi uğrunda çox böyük mübarizələr aparan bir şəxsiyyət olub. Heydər Əliyev SSRİ-də yaşayan türklərin qeyri-rəsmi şəkildə lideri idi.*** SSRİ-də yaşayan türklərin dövlət başçılarının arasında müəyyən əlaqələrin yaranmasında, dostluq münasibətlərinin qurulmasında və türklərin özünü tanımasında Heydər Əliyev vaxtilə çox böyük rol oynayıb. 80-ci illərin ortalarında Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının deyil, ümumilikdə ittifaq tərkibində yaşayan çoxminli türk xalqlarının lideri kimi mübarizə aparır, türk dünyasının həm strateji, həm də taktiki problemlərinin həlli missiyasını şərəflə yerinə yetirirdi.

Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra türkdilli respublikalar arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və sağlamlaşdırılması sahəsində gərgin fəaliyyət göstərmişdir. O, Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan qardaş Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət verilmişdir. ***"Bir millət, iki dövlət"***

deyərək Ulu Öndər Heydər Əliyev bu qardaşlıq əlaqələrini necə də gözəl ifadə etmişdir.

İndiyə qədər ölkələrimiz arasında 100-dən artıq böyük əhəmiyyətə malik olan mühüm sənədlər imzalanıb. Türkiyənin Qars vilayətində Baş Konsulluğun açılmasının siyasi, iqtisadi, mədəni əlaqələrin dərinləşməsindəki rolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Ərzurum qaz kəməri iqtisadi inkişafla bərabər bütün dünyada bizim mövqelərimizi daha da möhkəmləndirib.

1999-cu ildə Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyə dövləti tərəfindən Atatürk adına yüksək mükafata layiq görülməsi Azərbaycan - Türkiyə əlaqələrinin möhkəmləndirilməsinin bariz nümunəsidir.

Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabilidir. Azərbaycan-Türkiyə əlaqələrini bu gün ölkə başçısı İlham Əliyev uğurla davam etdirir. Artıq iqtisadiyyat, mədəniyyət, təhsil və başqa sahələrdə ölkələrimiz arasında elə sıx münasibətlər mövcuddur ki, bunu asanlıqla yox etmək heç cür mümkün deyil. ***Ulu Öndər H.Əliyevin əsasını qoyduğu Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq fəaliyyət göstərir. Dövlət başçısı İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsində gerçəkləşən Bakı-Tbilisi-Ərzurum qaz xətti ölkələrimiz arasında yaranmış mənəvi körpünün daha da möhkəmlənməsinə xidmət edir.*** Bütün maneələrə baxmayaraq, yalnız onun təkidi ilə çəkilən Bakı-Tbilisi-Qars dəmiryol xəttinin zamanından və siyasətindən asılı olmayaraq ölkələrimizi daim birləşdirəcəyinə əminik.

Heç şübhəsiz gənclik bir millətin yaşaması, inkişafı üçün əsas rol oynayır. Bunun möhkəm olması isə yetişən nəslin sağlam təfəkküründən, düşünmə qabiliyyəti və inadkarlığından, asılıdır. Səbəbsiz deyil ki, bütün dövrlərdə millətinin adını tarixə yazan da elə sağlam gənc qüvvələr olub. Bunu bilən Ulu Öndər Heydər Əliyev də belə qüvvə yaratmaq arzusunda idi. Elə ona görə də 1994-cü ilin iyulunda Gənclər və İdman Nazirliyini yaratdı və xalqının gənclərini bir araya topladı. 1996-cı il fevralın 2-də isə ilk dəfə müstəqil dövlətin gənclər forumu keçirildi və elə həmin günü Azərbaycanın tarixinə gənclər günü kimi yazdı. Sonralar mütəmadi keçirilən forumlarda ***Ulu Öndərimiz cavanların fikrini öyrənir, azad, sağlam düşüncəli kadrlar yetişdirməyə və onlarla hesablaşmağa çalışırdı. Bəli, Heydər Əliyev bu tərbiyə üsulu ilə gəncləri Sovet düşüncəsi təsirindən qurtarır, söz sahibi olan azad düşüncəli insalara çevirirdi.*** Heydər Əliyev müasir düşüncəli, savadlı, dünyagörüşlü gənclik yaratmağa çalışırdı və bütün bunlara nail olmaq üçün onları müxtəlif ölkələrə təhsil almağa göndərirdi. Ancaq eyni zamanda gənclərə vətəninə, adət-ənənələrinə, kökünə sadiq olmağı və dövlətinə xidmət etməyi öyrədirdi. Bu isə onun Azərbaycan gəncliyinə verdiyi böyük dəyərin göstəricisidir.

"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünə məxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik."

Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra milli-mənəvi dəyərlərə münasibətdə yeni mərhələnin başladığını inkar etmək mümkün deyildir. Bu mərhələ eyni zamanda Azərbaycan xalqının mənəvi mədəniyyətində yeni intibah dövrünün başlanğıcı hesab olunmalıdır. Çünki bu dövrdə insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, insanların əsasən də gənclərin milli-mənəvi dəyərlərə sadiq yetişməsinə böyük önəm verilirdi. ***Ulu Öndər ölkə gənclərinin milli ruhda tərbiyə olunmasına xüsusi diqqət və qayğı ilə yanaşmağı vacib sayırdı. Ümumiyyətlə, "Dinimiz xalqımızın milli-mənəvi sərvətidir"***- deyən Heydər Əliyev cənabları mənəvi dəyərlərimizə həm də gələcəyin təməli kimi baxırdı.

Azərbaycanın tutduğu demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu millətin özünü dərindən dərk etməsini tələb edir, milli özünüdərk isə millətin ictimai və dini fikrinə, fəlsəfəsinə, adət-ənənələrinə müraciət edilməsini labüd edir. Çünki burada bir tərəfdən milli substansiyanın özünüdərk təcrübəsi, digər tərəfdən isə bu substansiyanın nisbətən güclü və aydın mənəvi təzahürləri cəm olmuşdur.

Bütün bunları müdrik bir filosof kimi nəzərə alan Heydər Əliyev 5 sentyabr 1993-cü ildə Təzəpir məscidində Məhəmməd peyğəmbərin mövludu münasibətilə keçirilən mərasimdə çıxış edərək demişdir: ***"Biz bir dövlət kimi... Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq."*** Möhtərəm Prezident bütün sonrakı dövr ərzində bu vədinə əməl etmiş, dinin, dini təsisatların və etiqadların müasir Azərbaycan cəmiyyətində oynadıqları rola diqqətini azaltmamışdır. 8 aprel 1998-ci ildə Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd etmişdir ki: ***"İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır".***

1998-ci ilin dekabr ayında Bakıda təşkil olunmuş ***"İslam Sivilizasiyası Qafqazda"*** adlı beynəlxalq simpoziumda Heydər Əliyev transmilli münasibətlərdə və cəmiyyət həyatında din amilinin, dünyada gedən mürəkkəb etno-siyasi proseslərdə İslam dininin yeri və rolunu, bəşəriyyətin gələcəyi naminə sivilizasiyalararası dialoqun zəruriliyini ön plana çəkərək demişdir: ***"Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünə məxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik."*** Heç şübhəsiz bu tarixi kəlamlar bu gün olduğu kimi həmişə öz aktuallığını qoruyacaqdır.

Ulu Öndərin həyatı və fəaliyyətləri haqqında bu gün ölkə xaricində də kifayət qədər əsərlər yazılmış və beynəlxalq ictimaiyyətə təqdim olunmuşdur. Biz bütün dünyada yaşayan türklər mənsub olduğumuz millətin yetişdirdiyi belə övladlarla fəxr etməliyik. Heydər Əliyevin Türk dünyasının biriliyi, strateji maraqlarının qorunması, Türkiyə və digər türkdilli xalqlar arasındakı münasibətlərin inkişafı sahəsində, eyni zamanda gələcəyimiz olan gənclərə verilən böyük dəyər və onların milli-mənəvi dəyərlərə bağlı yetişməsi sahəsində gördüyü işlərə, mənəvi mədəniyyətin inkişafına töhfələrinə görə mübaliğəsiz demək olar ki, ***Heydər Əliyev yalnız Azərbaycanın yox, bütün Türk dünyasının fəxri və XX əsrdə yetişdirdiyi ən önəmli dövlət xadimi və siyasətçisidir.***

Elşən RZAYEV • elshanrza@hotmail.com

BÖYÜK DAHİ
HEYDƏR ƏLİYEV
85 YAŞINDA

İnsan doğularkən tale, qismət də onunla birgə dünyaya göz açır. Yer üzünün əşrəfi doğulduğu gündən qəbir evinə kimi alnına yazılan yazı ilə özünəxas tale yollarından keçir. Bu tale yollarında hər bir insan özü üçün bir dünya qurur. İnsan təxəyyülündən qurulan dünya hər kəsin özünə aid dünyadır. Seçdiyi yola, məsləyə, bütün varlığı ilə inanan, ömrü boyu yararlı, dəyərli işlər görməyə can atan, bununla da adilikdən ayrılan - ölümündən sonra belə ürəklərdə yaşayan, unudulmaz bir insan olan Heydər Əliyevin doğumundan 85 il keçir.

Artıq 10 May hər bir Azərbaycan vətəndaşının, bütün Azərbaycan xalqının sevincinə çevrilib. Bu, təkcə bir adamın, bir ailənin sevinci deyil, bütün Azərbaycan xalqının, bütün Azərbaycan vətəndaşlarının sevincidir.

Heydər Əliyev böyük cazibəyə malik olan şəxsiyyət olub. Bu cazibə onun xalqı üçün yaşamasından qaynaqlanırdı. Onun şəxsiyyətində ən çox cəlb edən xüsusiyyət malik olduğu cəsarət, fədakarlıq, qətiyyət, humanizm, mərhəmət, əsil vətəndaş mövqeyi, Azərbaycançılıq hisləridir.

Heydər Əliyev mənəviyyatı üçün yaşayıb yaradan ictimai-siyasi xadim olub. Azərbaycançılıq ideologiyasının banisi olan bu nadir siyasətçi və şəxsiyyət bütün zamanlarda mütərəqqi insanlar tərəfindən qürur və şərəf hissi ilə xatırlanacaqdır.

Fikirlər içində çırpınır könlüm,
Gedən yer üzünə bir daha gəlmir.
Həyatdan hamını qoparır ölüm,
Yalnız dahilərə toxuna bilmir.

Heydər Əliyevin yaşadığı şərəfli ömür, gördüyü işlər, qurduğu dövlət, canını belə əsirgəmədiyi vətən indi də onu unutmur və illər keçsə də unutmayacaq. Unudulmayanlar isə yalnız cismən həyatdan gedənlərdir…

Ancaq hələ ulu öndərin ruhu qarşısında borcumuz var. Borcumuz odur ki, onun qurduğu Azərbaycan müstəqil bir dövlət kimi daha da inkişaf etsin, daha da qüdrətlənsin, Azərbaycanın müstəqilliyi hər bir vətəndaş üçün xoşbəxtlik gətirsin.

Salih Zeki MERİÇ •
salihzekimeric@yahoo.com

NEÇƏ KÖNLÜ FƏTH ETDİN, NEÇƏ KÖNLÜ VİRAN QOYDUN?

Həzrət Əbu Zərr Qifari... Səhabə modeli olaraq ən diqqətçəkici xüsusiyyətə malik bir səhabə. **Səhabələr hər yöndən bizə nümunə olan insanlardır.** Allah Rəsulu mislsiz əsri-səadət toplumunu inşa edərkən hər cür insanı əhatə edəcək dərin könlə və sonsuz mərhəmətə sahibdi.

Əbu Zərr yalnızlığı sevməsi və Peyğəmbərimizə sədaqəti ilə məşhur səhabə... Hətta Allah Rəsulu onun üçün **"Əbu Zərr yalnız gəzər, yalnız yaşar və yalnız ölər"** demişdi. Bədəvilərdən ilk müsəlman olmaq şərəfi də ona aiddir. Sadəcə ilk müsəlman deyil, **ucqar vilayətlərin ilk təmsilçisi.** Hər zaman Allah Rəsulunun yanında idi. **Peyğəmbərimizin kölgəsi kimiydi.** Peyğəmbər aşiqi...

Mənbələrə görə Əbu Zərr Qifarinin qəbrinin İstanbulda olduğu söylənsə də bəzi mənbələr onun İstanbul mühasirəsindən 19 il əvvəl Mədinə bölgəsində Rəcə adlı yerdə vəfat etdiyini qeyd edir. Əlbəttə ki, qəbri-şərifinin İstanbulda olmasından ən çox şərəflənəcək olan yenə İstanbuldur. Lakin qəbrinin harada olmasından daha çox onun Rəsulullah (s.ə.s)-in sünnəsinə möhkəm bağlanması və özünəməxsus şəxsiyyətinin olması, bir insan olaraq Məhəmməd ümməti üçün nümunə təşkil etməsi daha mühümdür.

Yenə mənbələrdən bizə qədər gələn bir hadisə var. Əbu Zərr (r.a) ilə həzrət Bilal arasında cərəyan edən bir hadisə. Bilindiyi kimi həzrət **Bilal Həbəşistan əsilli, qaradərili səhabə idi.** Təbii ki, insana rəng, cinsiyyət və xarakter verən Allahdır. Allahın murad etdiyinin xaricində insanın edə biləcəyi bir şey yoxdur. Nə ağ olmaq bir əskiklikdir, nə də qara olmaq. Yaxud nə qadın olmaq bir artıqlıqdır, nə də kişi olmaq. Amma onlar da bir insandı, səhabə olsalar belə. Və insan qüsurları ilə insandır. Günahı ilə, tövbəsi ilə. Hətta bir hədisi-şərifdə **"Siz heç günah işləməyən bir toplum olsaydınız, Allah sizi yox edər və yerinizə günah işləyən, fəqət tövbə edən bir toplum yaradardı."** *(Müslim, Tövbə 10-11)* buyurulur.

Bu hədisi-şərif günah işləməyin məşru-

Təbii ki, insana rəng, cinsiyyət və xarakter verən Allahdır. Allahın murad etdiyinin xaricində insanın edə biləcəyi bir şey yoxdur. Nə ağ olmaq bir əskiklikdir, nə də qara olmaq. Yaxud nə qadın olmaq bir artıqlıqdır, nə də kişi olmaq.

luğuna, yaxud günahın işlənə biləcəyinə dəlalətdən daha çox müsəlmanın davamlı günahdan uzaq durmasından və insani qüsurlardan dolayı xətaya düşmüşsə, tez tövbəyə sarılmasından və Allaha yönəlməsinin zərurətindən xəbər verir. Heç bir insan qüsursuz deyildir. Qüsursuzluq yalız Allaha xas xüsusiyyətdir. **Həzrət Bilalla** aralarında baş verən kiçik münaqişə zəminində həzrət **Əbu Zərr** bir anlıq qəflətə düşmüş və **"Qara qadının oğlu"** deyə həzrət Bilalı təhqir etmişdi. Hər ikisi səhabə idi və hər ikisi Allah Rəsulunun sevdiyi insandı. Birisi cahiliyyət dövründə Ümeyyə bin Xələfin köləsi, digəri isə ucqar kənddən gələrək İslamla şərəflənmiş və bir-birini tanımış insanlardı. Həzrət Bilal bu sözlərə çox kədərləndi. O qədər kədərləndi ki, dayana bilməyib həzrət Əbu Zəri Allah Rəsuluna şikayət etdi:

- Ya Rəsulallah, Əbu Zərr məni **"sən qara qadının oğlusan"** deyə təhqir etdi.

Könlü ümmanlar qədər geniş və dərin olan Peyğəmbərimiz təbəssüm etdi. **"Mən onunla danışaram"** dedi. Həzrət Bilalın könlünü aldı. Bəlkə də məsələnin Peyğəmbər (s.ə.s)-ə qədər çatmasını istəmirdi. Amma demək ki, çox toxunmuşdu bu söz Bilala. Çünki İslam qardaşlığının ən mühüm yönü irq, rəng, cinsiyyət ayrı-seçkiliyi etmədən hamını qardaş olaraq bir arada tutması idi.

Sonra həzrət Peyğəmbər Əbu Zəri çağırdı. Ona nə dediyini hər kəs təxmin edər hər halda. Allah Rəsulu qışqırıb bağırmadı. Eyni tonla onu incitmədən deyəcəklərini yumşaq dillə söylədi. Amma Bilalın qəlbinin qırılmasına da dayana bilməmişdi. Onun üçün bunları söylədi: **"Onun qəlbini açıb bu daşın üstünə qoysanız qəlbinin nuru günəşin ziyasını kəsər."** Əbu Zərr nə qədər böyük bir xəta işlədiyini, bir könül qırdığını və günahını yumağın gərəkli olduğunu düşünərək Bilalın evinə yollandı. Başını onun qapısının kandarına qoyaraq gəlməsini gözlədi. Bilal gəldikdə isə: **"Vallahi, sən ayağınla bu başımı taptalayıb keçmədikcə buradan qalxmayacağam."** –deyə and içdi. Həzrət Bilal bu mənzərə qarşısında göz yaşları ilə Əbu Zərr (r.a)-ı yerdən qaldırdı, ona sarılaraq haqqını halal etdi. *(Buxari, İman 22)*

Səhabə həyatından örnək bir tablo. Bir qəlb qırmağın nə qədər böyük fəlakət olduğunu bu hadisədən anlaya bilərik. Müsəlman adam qəlb qırmaq bir tərəfə, hətta yerdə gəzən qarışqanı belə, incitməməyə diqqət etməlidir. İzzətlə, şərəflə, müsəlman tövrləri ilə Allahın sevdiklərini sevmək, qəzəb etdiklərinə qəzəblənmək müsəlmanın ən başda gələn vəzifəsidir. Amma yeri gəldikdə də Allahın mərhəmət dəryasından nəsiblənməli və **"Yaradandan ötrü yaradılanı sevməyi"**, ona şəfqət göstərməyi bilməlidir. Çünki həzrət Məhəmməd qəzəb deyil, mərhəmət peyğəmbəridir.

Nurlan MƏMMƏDZADƏ • nmemmedzade@irfandergisi.com

İNSANLIQ DAĞININ ZİRVƏSİ OLMAQ

Həzrət Peyğəmbərin vəfatından sonra "Əbu Übeydə bin Cərrahla dolu bir ev olsa və hamısını Allah yolunda xidmət etdirsəm" deyən xəlifə Ömərin (r.a) hələ əsri-səadətdə fərqinə vardığı bir itkidir könül insanı. Bu gün barmaqla göstəriləcək qədər azdır onlar. Eynilə dünyaya gəlmiş-getmiş bu qədər insan içərisində yüz iyirmi dörd min peyğəmbər nisbətindədirlər.

Könül insanı ola bilmək...

Bu gün ən çox qıt olan dəyərimiz. Demək olar ki, yox dərəcəsində. Hər şeyin beş quruş dünya varına satıldığı, şərəf hisslərinin şəhvətlə əvəz olunduğu, insani dəyərlərin, vicdani təməllərin kökündən sarsıldığı cəmiyyətin üzvləriyik. Bəzən özümüzü müdafiə etməyə qalxsaq da, əksini söyləsək də hər şey göz qabağında deyilmi? Kimi aldadırıq görəsən? Qarşımızda duran bu acı həqiqətlərin astanasında ən çox itirdiyimiz dəyərimizsə könül insanı modelidir. Diqqət edərsək hər keçən gün bir az daha azalır könül insanlarımız və könül insanı yetişdirmə nailiyyətimiz. Yer üzündə insan sayı artdıqca nədənsə sözünü etdiyimiz könül insanı deyilən kateqoriyanın mənsubları deformasıyaya uğrayır. Həzrət Peyğəmbərin vəfatından sonra ***"Əbu Übeydə bin Cərrahla dolu bir ev olsa və hamısını Allah yolunda xidmət etdirsəm"*** deyən xəlifə Ömərin (r.a)

Könül insanı olmaq insanların qüsurlarını üzə vurmamaqda, onları bağışlamaqda Yusuf Peyğəmbər kimi olmaqdır. Onsuzda:

"Zalımlara bir gün dedirir qüdrəti-Mövla Təllahi ləqad əsərakəllahu aleyna "

hələ əsri-səadətdə fərqinə vardığı bir itkidir könül insanı. Bu gün barmaqla göstəriləcək qədər azdır onlar. Eynilə dünyaya gəlmiş-getmiş bu qədər insan içərisində yüz iyirmi dörd min peyğəmbər nisbətindədirlər. Könül insanı yetişdirə bilməmək İslam coğrafiyasında yaşayan millətlərin ən böyük itkisidir bəlkə də. Həm də elə bir itkidir ki, fərqində deyilik. Çox yaxın adamını itirən, lakin bundan xəbərsiz insana bənzəyirik.

Könül insanı olmaq nədir?

Könül insanı olmaq təmiz qəlblə kainata baxmaq deməkdir. O qəlbdə kinə, həsədə, təkəbbürə, şirk və küfrün əsintilərinə zərrə qədər yer yoxdur. Könül insanı Allahın qəlbi-səlim dediyi ürəyə sahib olanlardır. Könül insanı olmağın yolu qəlbi vəyin nuru ilə yumaqdan keçir. Məhz belə olduğu zaman həzrət Peyğəmbərin buyurduğu "Müsəlman Allahın nuruyla baxar" həqiqəti çıxır ortaya. Qəlb gözünün açılmasıdır könül insanı olmaq. Qüdsi hədisdə buyurulduğu kimi Allahın bəndəyə baxan göz, düşünən qəlb olmasıdır könül insanı olmaq. Məhz ilahi nəzərlə baxdığı üçün onlar hər kəsi bağışlama gücünə sahibdir. Bəzən bu səbəbdən qınaq obyekti də ola bilirlər əslində. Lakin Allah təalanın Qurani-Kərimdə buyurduğu və olmalarını istədiyi bir zümrədir onlar. ***"Heç kəsin tənəsindən (qınayanın qınağından) qorxmazlar"*** onlar. (əl-Maidə, 54) Çünki onların sahib olduğu qəlbi səviyyəyə çatmamış cahillərin anlamayacağı özəlliklərə sahibdirlər onlar. Şairin dediyi kimi: "Anlamaz dərd əhlini biganələr". Lakin buna baxmayaraq bağışlamağı bacarırlar onlar. Edam edilən Hallacın: ***"Allahım, məndən əvvəl onları bağışla"*** deyərək etdiyi dua nə qədər də ibrətamizdir. Bir könül insanı varmış. Peşəsi çörək bişirib satmaqmış. Hər gün onlarla, yüzlərlə adam saxta pul verərək çörək alırmış ondan. Aldatdıqlarını zənn edərlərmiş. Ölüm döşəyində yatarkən belə dua edir: "Allahım, mən ömrüm boyu sənin qullarının gətirdiyi saxta pulları görməməzlikdən gəldim. Qüsurlarını, xətalarını üzlərinə vurmadım. Sən də bu günahkar bəndəni bağışla. Həyatım boyu etdiyim ibadətlərimi saxta və naqis olmasına baxmayaraq dərgahında qəbul et!.." Könül insanı olmaq insanların qüsurlarını üzə vurmamaqda, onları bağışlamaqda Yusuf Peyğəmbər kimi olmaqdır. Onsuzda:

"Zalımlara bir gün dedirir qüdrəti-Mövla Təllahi ləqad əsərakəllahu aleyna " (1)

Hər gün yüzlərlə insanın evsiz-eşiksiz qaldığı, yeyəcək çörək tapmadığı, ətrafımızda bu qədər kimsəsiz yetimin yaşadığı, şeytani insanların qazdığı günah çuxuruna düşən saf insanların ləkələndiyi cəmiyyətdə könül insanı olmasaq da könül qırmamağa diqqət etmək hər birimizin borcudur. Son söz Mövlanadan olsun: ***"Ey salik, Musa da, Firon da səndədir. Hər ikisini özündə ara! Vəhyin işığında aydınlan ki, səndəki Musa səndəki Firona qalib gəlsin!"*** Hamanların olduğu bir dünyada Firon olmamaq ümidi ilə...

(1) Yusuf surəsinin 91-ci ayəsidir. "Onlar: "Allaha and olsun ki, Allah səni bizdən üstün etmişdir. Biz isə (sənin barəndə), sözsüz ki, günah etmişik!" - dedilər." Şeir Ziya Paşanındır.

Könlümüzdə Kinə yer yox

Hacı Arif HEYDƏROĞLU
haciceylan@yahoo.com

Kin gizli ədavət hissindən ibarət əxlaqi bir nöqsandır. Din dünya və axirətdə səadət yollarını insanlara göstərən ilahi nizamdır. Kin düşmənçiliyin, din dostluğun əsasıdır. Ona görə də İslamiyyət kin dini yox, məhəbbət dinidir! Kinlərini din kimi qələmə verənlərin kütləşmiş başlarına bu həqiqəti həkk etmək ən xeyirxah əməllərdən biridir. Çünki İslamiyyət şəfqət, mərhəmət, öyüd-nəsihət dinidir. Din qardaşı olan möminlərə qəlbində kin bəsləyənlər əsla kamil müsəlman sayıla bilməzlər.

Peyğəmbərimiz (s.ə.s)buyurur:

"İman gətirmədikcə Cənnətə girə bilməzsiniz. Bir-birinizi sevməyincə də iman gətirmiş olmazsınız." *(Səhihi-Müslim, Kitabul-İman 93)*

"Bir-birinizə həsəd apar-mayın! Bir-birinizə pis baxmayın! Bir-birinizdən üz döndərməyin! Bir-biriniz haqqında sui-zənn bəsləməyin! Bir-birinizin nöqsanlarını görməyə çalışmayın! Bir-birinizin sirlərini və məhrəm həyatını araşdırmayın! Bir-birinizlə mənfəət yarışına girməyin! Bir-birinizdən küsməyin! Ey Allahın qulları, qardaş olun!" *(Səhihi-Müslim, Kitabul-Birr vəssıla 28, 32)*

İmanın kamil olması üçün müsəlmanların bir-birini sevmələri əsasdır. Bu sevgi isə yalnız Allah üçün olmalıdır. İslam müsəlmanlar arasında küsməyi, kin və nifrəti, düşmənçiliyi qadağan etmişdir. İslam qardaşlığı, möminlərin bir-birini sevib dost olmalarını və bir-birinə kömək etmələrini buyurur.

Ey çaşqın adam!.. Sən din qardaşına kin-küdurət və düşmənçilik bəsləmək əvəzinə öz nəfsinə düşmənçilik

et! Çünki əsil düşmən ***"nəfsi-əmmarə"***- pisliyi çox əmr edən nəfsdir. Kin və düşmənçiliklə müsəlmanlar pərən-pərən düşürlər. Yer üzünün nizamı pozulur, dünyanı fəsad yanğınları əhatə edir.

Şiddətə düşmən, rəhmət və şəfqətə isə heyran olmaq ruhi nəcibliyin əsas göstəricisidir. Müsəlmanlar arasındakı şəxsi münasibətlərdə kinə, düşmənçiliyə, zorakılığa yer yoxdur! Aramızda fikir ayrılığı olduğu üçün din qardaşımıza necə kin bəsləyə bilərik?

Kin, düşmənçilik, məhvedicilik hamının edə biləcəyi bir işdir. Əsas olan kindən, ədavətdən uzaq olmaqdır. Rəsulullah (s.ə.s) məkkəli müşriklərin zülmündən çox əzilmiş, yanına Zeyd bin Harisəni alaraq İslamı təbliğ etmək üçün Taifə getmişdi. Taiflilər onu çox pis qarşıladılar. Lağa qoyub təhqir etdilər. Tərbiyəsiz uşaqları və sərsəriləri əleyhinə təhrik edib onu küçələrdə daş-qalaq etdirdilər. Aləmlərin yaradılmasına səbəb olan o uca peyğəmbəri çox incitdilər. Toz-torpaq içində qaldı, yaralandı. Ayaqlarından qanlar axdı. Bu vəziyyətdə ikən şəhərin xaricinə çıxdılar. Qəlbisınıq, könlü kədərli şəkildə yol kənarında bir az oturub dincələrkən Allah təala Cəbrayıl (ə.s)-ı göndərdi. Cəbrayıl (ə.s) dedi ki:

- Haqq təala məni göndərdi. Sənə salam deyir. Dağlar mələyini də mənim yanıma verib sənin əmrinə müntəzir qıldı. İstəyirsən bu mələyə əmr et. Gördüyün uca dağları, sənə zülm edən bu axmaq qövmün başına keçirsin, şəhərlərini yerlə-yeksan etsin...

Rəsulullah (s.ə.s) qanlar içində olduğu halda Cəbrayıl (ə.s)-a bu cavabı verdi:

- Ey qardaşım Cəbrayıl! Mənim qövmüm cahildir. Ümid edirəm ki, Allah təalanın lütf və yardımı ilə gün gələr hidayətə çatıb müsəlman olarlar.

Biz belə bir Peyğəmbərin ümməti olaraq əngin bir səbir, dözüm, şəfqət və mərhəmət sahibi olmalıyıq. Dinimiz kin dini deyildir. Heç vaxt yaddan çıxarmayaq ki, əsil müsəlman yalnız və yalnız məhəbbət fədaisidir.

Müsəlmanın qəlbindəki şəfqət, mərhəmət, məhəbbət, ülfət, ünsiyyət, mürüvvət və kərəm hissləri o qədər genişdir ki, bu fəzilətlər ona bütün cahanı qucaqlayacaq, İslamın nurunu hər tərəfə yayacaq bir istedad verir.

Uca Rəbbimiz həzrət Musa (ə.s) ilə qardaşı həzrət Harunu Fironun yanına göndərərkən belə buyurdu:

"Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!" *(Taha, 43-44)*

Bizə doğma qardaşımızdan da yaxın olan din qardaşımıza kin bəsləmədən, şəfqət və mərhəmətlə onu pisliklərdən çəkindirməli, yaxşı əməlləri tövsiyə etməliyik.

Məşhur bir məsəl var: ***"Mən ləhu kinun, leysə ləhu dinun" – "Kinli olan dinli olmaz"***

Aramızda hökm sürən kin-nifrət, düşmənçilik və çəkişmələr yetər artıq!..

Parolumuz salam, məhəbbət olsun. Könlümüz sevinclə dolsun. Qoy gözəl günlər bizim olsun!

Bizim yolumuz kin yolu deyil, din yoludur. Din qardaşlıq, qardaşlıq isə, ondakı üstünlükləri görmək, nöqsanları örtməkdir.

Rüfət ŞİRİNOV • rufet_80@hotmail.com

Könüllər Sultanını sevmək

Peyğəmbərlərin ən xeyirlisi olması, aləmlərə rəhmət olaraq göndərilməsi, imanın şərti olması və bir çox səbəblərdən ötrü Peyğəmbəri sevməliyik. Eyni zamanda onun sevilməsi üçün əlimizdən gələni etməliyik. Əlbəttə ki, sevdirə bilmək üçün də necə sevməyi bilmək lazımdır.

Sevmək sevilənə qarşı məhəbbət bəsləmək, əqli və fikri ilə onunla olmaq, sevilən üçün yaşamaqdır. Onunla bərabər olmaq üçün hər şeydən fədakarlıq etmək, ona bənzəməyə çalışmaq, onun xoşladığı şeyləri xoşlayıb, bəyənmədiyi şeylərdən uzaqlaşmaqdır sevmək. Bir kəsi nə qədər sevdiyimizi bu suallara cavab verərək ölçə bilərik.

Hərdən, Peyğəmbər (s.ə.s)-ə dil uzadanlarla, ona tabe olmağı məntiqsiz qəbul edərək sadəcə Qurana tabe olmağın kifayət olduğuna inananlarla, hətta onu sevməyin yersiz olduğuna inananlarla, adı çəkildikdə salavat çevirməyənlərlə -arzu etməsək dəqarışlaşırıq. İstər-istəməz bu cür davranışlar insanların fikirlərində Peyğəmbər (s.ə.s) haqqında bəzi şübhələr oyandırır. Bunların yersiz olduğuna və Peyğəmbər (s.ə.s)-i sevib ona iman etməyin labüd olduğuna inandığımız üçün belə bir yazı ilə sizin qarşınıza çıxırıq. Şübhəsiz, Peyğəmbər sevgsini iki səhifəyə sığdırmaq çox çətindir. Sevgi yaşanaraq anlaşılır. Kəlmələr imkan verdiyi qədər bu sevgini sizlə paylaşmaq istəyirik.

Peyğəmbərimizi niyə, necə və nə qədər sevməliyik?

Allahı sevdiyimiz üçün onu da sevməliyik. Allahı sevmək Peyğəmbərlərini sevməklə, onlara tabe olmaqla olar. Allahı sevmənin yolu Peyğəmbərini sevməkdən keçir. Çünki Allah belə buyurur: (Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca

gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!" *(Ali İmran, 31)*

Hz. Peyğəmbər (s.ə.s) bizi, yəni ümmətini sevdiyinə görə biz də onu sevməliyik. O, xəstələri yoluxar, ehtiyac sahiblərinin ehtiyacını qarşılayar, dərdlilərin dərdinə dəva olmağa çalışardı. O, hər fürsəttə ümmətini düşünər, hətta onlara çətinlik olmasın deyə hər şeyi əmr etməzdi. Bir rəvayətdə, dişlərini təmizləməyi çox sevdiyi üçün ümmətinə hər dəstəmaz alarkən diş təmizliyini əmr etməyi düşünür. Ancak bu, onlara çətin gələr deyə vaz keçir. Quran da onun ümmətini sevdiyinə şahidlik edir: "***Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!"*** *(ət-Tovbə, 128)*

Onu əxlaq nümunəsi olduğu üçün sevməliyik. Onun əxlaqıyla əxlaqlanmaq sevginin təzahürlərindəndir. Allah onu gözəl əxlaq üzrə göndərmişdir.

Peyğəmbərlərin ən xeyirlisi olması, aləmlərə rəhmət olaraq göndərilməsi, imanın şərti olması və bir çox səbəblərdən ötrü Peyğəmbəri sevməliyik. Eyni zamanda onun sevilməsi üçün əlimizdən gələni etməliyik. Əlbəttə ki, sevdirə bilmək üçün də necə sevməyi bilmək lazımdır.

Bir kəsi sevmək onu daha yaxından tanımaqla mümkündür. Sevmək və bilmək düzmütənasibdir. Necə sevəcəyimizi qısaca belə ifadə edə bilərik:

Tanıyaraq sevmək: Yuxarıda da ifadə etdiyimiz kimi tanımaq və bilmək həqiqi sevmənin təməlidir. Kor-koranə edilən heç bir şeyin faydası yoxdur. Peyğəmbəri sevmiş olmaq üçün deyil, sevdiyimiz üçün sevməliyik.

Sünnələrinə tabe olmaq və onun yaşadığı kimi yaşamağa cəhd etməklə ona daha yaxın olarıq. Onun kimi oturmaq-durmaq, gülmək, ağlamaq.... O olmaq. Qəlbi sadəcə ona həsr etmək.

Deməli, sevmək sevdiyimizdə yox olmaqla olur. Mövlana həzrətləri belə deyir : "Birinin qəlbində taxt qura bilmək, sevgisini qazanmaq istəyirsinizsə, onu elə sevməlisiniz ki, mənliyinizi buraxıb "o" olasınız.

Nə üçün və necə sevməyimizi bildikdən sonra nə qədər sevəcəyimizi bilmək də önəmlidir. Çünki həddindən artıq olan hər şey zərərlidir. Əgər biz Peyğəmbər (s.ə.s)-i Allahdan çox sevsək şübhəsiz ki, ona şərik qoşmuş olarıq. Bu da Allah tərəfindən bağışlanmayacaq böyük günahlardandır. Nə qədər sevəcəyimiz haqqında Allah və Peyğəmbər özü bizə məlumat verir. Quranda sevmənin həddi və dərəcəsi belə müəyyənləşdirilib: "***Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər)...*** *(əl-Əhzab surəsi, 6)* Rəsulullah bu mövzu ilə əlaqədar belə buyurur: "***Sizdən biriniz məni atasından, anasından, övladlarından və bütün insanlardan daha çox sevmədikcə, kamil iman etmiş sayılmaz.*** *(Buxari, İman 8)*

Şübhəsiz bütün bunlar axirətdə ona qonşu olmaq, onun ümmətindən olmaq və şəfaətinə nail olmaq üçündür. Peyğəmbər sevgisi bir mömini cənnətə aparacaq böyük bir sərmayədir. Bir adam gələrək Rəsulullaha qiyamətin nə zaman qopacağını soruşur. Peyğəmbərimiz də ona cavab vermək yerinə, qiyamətə nə hazırladığını soruşur. Adam çox şey hazırlaya bilmədiyini, sadəcə Allah və Rəsulunu sevdiyini söyləyir. Buna müqabil Peyğəmbər (s.ə.s) ona: ***"İnsan sevdiyi ilə bərabərdir" buyurur.***

Hz. Peyğəmbər (s.ə.s) bizi, yəni ümmətini sevdiyinə görə biz də onu sevməliyik. O, xəstələri yoluxar, ehtiyac sahiblərinin ehtiyacını qarşılayar, dərdlilərin dərdinə dəva olmağa çalışardı. O, hər fürsəttə ümmətini düşünər, hətta onlara çətinlik olmasın deyə hər şeyi əmr etməzdi.

Dr. İbrahim BAZ



Xətt: Dr.Mehmet RİHTİM

Bu da keçər, YA HU!

Həqiqət sirrini Haqqı, yürü, naqislərə sorma
Ki naqislər nədir bilməz həqiqətdə kəmali-Hu
İsmayıl Haqqı Bursəvi

Hər varlıq ziddində gizlidir. Hər gecənin bir sabahı, hər qışın bir baharı vardır. Gündüz və gecə birlikdə bir gün edər. Yazla qış birlikdə bir il edər.

Bəzən baharı düşünüb xəyallar qurarkən acı bir soyuq soldurar qönçə gülləri. Bir anda əllər boşalar, xəyallar qaralar, ümidlər tükənər. Yaxud da qaranlığın qoynunda parlayan bədirlənmiş ay gün kimi aydınladar gecəni. Cəhalətin zülmətinə nur haləsi düşər və bütün aləm nura qərq olar. İnsan oğlu durmadan baharı xəyal etsə də əhli-irfan nə baharın, nə də qışın baqi olmadığını bilir. Nə gecə, nə də gündüz baqidir. Nə cəhalət, nə də əsri-səadət baqidir. Hər nəfs fanilik şərbətini içər və yalnız O qalar. "Bu da keçər, Ya Hu" sözünün dərinliklərində olan gizli məna da budur. Bu münasibətlə əhli-irfanın öncə qəlbində, sonra evinin qapısında bu lövhə asılıdır.

Fəlakət və məşəqqətlər qarşısında səbir etmək, mətanəti qorumaq mənasında istifadə olunan bu gözəl söz, eyni zamanda rifah içində yaşayarkən də yaddan çıxarılmamalıdır. Bu sözün ilk qismi olan "Bu da keçər" təbiri dünya həyatını ifadə edir. "Ya Hu" qismi isə Allahı və həqiqi mənada Onun baqi olduğunu ifadə edir. Bu sözün həqiqətinə vaqif olan əhli-irfan özlərinə verilən dünya nemətlərinin və ya çətinliklərin bu dünya kimi baqi olmadığını və davamlı dəyişdiyini bildikləri üçün nə nemətin sərxoşu olmuşlar, nə də çətinliklər qarşısında üsyan etmişlər. Eşq dəryasına dalan və Allahdan başqasını görməyən Yunusun dilindəki VAR yalnız YARdır. Onun nəzərində dünyanın varlığı ilə yoxluğu, aclığı ilə toxluğu, azlığı ilə çoxluğu birdir:

Ne varlığa sevinirim
Ne yokluğa yerinirim
Aşkın ile avunurum
Bana seni gerek seni

Bu duyğulara sahib olan müsəlman təslimiyyəti yaşamış olur. Nə var-dövlət, nə də yüksək məqamlar onu sərxoş edər. Nə də çətinliklər qarşısında ümidsizliyə düşər. Lakin

bunun fərqinə varmayanların sayı çoxdur. Var-dövlətin əsiri olanlar, yaxud nəfsini ilahlaşdıranlar azdırmı? Öncə varlıq çərçivəsindən baxıb düşünək: Sağlığımızı, sahib olduğumuz məqamı, yediklərimizi, dostlarımızı, ailəmizi, mühitimizi və etdiyimiz xidməti… Sonra yoxluq çərçivəsindən baxaq: Xəstəxanalara getdiyimiz ağrılı anları, iş axtardığımız günləri, pulsuzluq üzündən çəkdiyimiz acıları, qəlbini qırdığımız və halallıq istəmək imkanımızın qalmadığı dostlarımızı… Bütün bunlar imtahandır və kimin necə qazanacağı bəlli deyil. Həqiqəti bilən Allahdır.

İrfan əhlinə görə: Şəriətdə sənin malın sənin, mənim malım mənim. Təriqətdə sənin malın sənin, mənim malım da sənin. Həqiqətdə isə nə sənin, nə də mənim.

Bu sözün hekayəsini birlikdə oxuyaq: Bir dərviş uzun səfərdən sonra bir kəndə gəlir. Ona gecələmək üçün yer verəcək adam axtarır. Hər kəs Şakir adlı zəngin bir adamın evini göstərir. Kəndin ikinci zəngin adamı isə Haddad adlı bir adamdı. Şakirin yanına gedən dərviş yüksək səviyyədə qarşılanır. Yola çıxarkən "Var-dövlətin üçün şükür et!" –deyən dərvişə Şakir bunu söyləyir: ***"Heç bir şey olduğu kimi qalmaz. Bəzən görünənlər əsil gerçək deyildir. Bu da keçər..."*** Dərviş uzun-uzadı düşünür. Bir neçə ildən sonra dərvişin yolu yenə eyni kəndə düşür. Şakiri ziyarət etmək istər. Şakiri soruşduğu kəndlilər: ***"Sənin dediyin Şakir müflisləşdi. Haddadın yanında işləyir"*** deyə cavab verirlər. Dərviş Şakiri tapır, görüşür. Sel fəlakətindən bütün mal-qarasını tələf olan Şakir yoxsulluq içində yaşayır. Yenə də dərvişlə yeməyini paylaşır. Dərviş gedərkən Şakirin halına acıdığını söylər və yenə bu cavabı alır: ***"Unutma, bu da keçər..."*** Yeddi il sonra dərviş yenə o kəndə gəlir. Eşitdiklərinə inanmır. Haddad bir neçə il əvvəl ölmüş, ailəsi olmadığı üçün var-dövlətini ən sadiq xidmətçisi və dostu Şakirə bağışlamışdır. Dərviş bölgənin ən zəngin insanı olan Şakiri görür və çox sevindiyini söylər. Yenə eyni cavabı alır ***"Bu da keçər..."***

Bir müddət sonra dərviş yenə Şakiri axtarır. Ona bir təpəni göstərirlər. Təpədə Şakirin məzarı, üstündə də bunlar yazılıdır: ***"Bu da keçər!"*** Ölümün nəyi keçər, deyə düşünən dərviş ertəsi il Şakirin məzarını ziyarət etmək üçün gəldiyində nə təpə görür, nə məzar. Böyük bir sel Şakirin məzarı ilə birlikdə təpəni yuyub aparmışdır...

Hünər Baqi ilə əbədiləşməkdir.

Öncə varlıq çərçivəsindən baxıb düşünək: Sağlığımızı, sahib olduğumuz məqamı, yediklərimizi, dostlarımızı, ailəmizi, mühitimizi və etdiyimiz xidməti… Sonra yoxluq çərçivəsindən baxaq: Xəstəxanalara getdiyimiz ağrılı anları, iş axtardığımız günləri, pulsuzluq üzündən çəkdiyimiz acıları, qəlbini qırdığımız və halallıq istəmək imkanımızın qalmadığı dostlarımızı…

Ramiz MƏMMƏDOV

İZZƏTDƏN ZİLLƏTƏ

Bir an kəndimizdəki Əli dayı gözümün önündə canlandı. O Əli dayı ki, bəy kimi dolanar, heç kimə əl açmaz, əksinə hər kəsin əlindən tutar, ağsaqqallığı ilə seçilərdi. Əli dayının oradan nə üçün uzaqlaşdığı artıq məlum idi. Buna mən səbəb olmuşdum. Çünki Əli dayı məni tanımış və onu bu şəkildə görməyimə dayana bilməmişdi.

Şair Əbu Tayyib belə deyir: "Kim alçalarsa zillət ona asan gələr, çünkü ölüyə yara əziyyət verməz."

Şair burada alçalan insanı ölüyə bənzədir. Belə olunca da zillətin həmin adama təsiri olmayacağını deyir. Bu şeiri ilk dəfə oxuyan kimi diqqətimi çəkmişdi. Çünki bu şeir mənə "muhacirlik ölümdən betərdir" hikmətli sözünü xatırlatmışdı. Bu iki vəciz kəlamı birləşdirdiyimiz zaman ortaya bu nəticə çıxır.

Muhacirlik (məcburi köçkünlük) ölüm kimi bir şeydir,

Alçalan insan da ölmüş kimidir,

Deməli, məcburi köçkünlük alçalmağın, dolayı yolla zillətin yolunu açır.

Yuxarıdakı nəticəni oxuyan hər kəsin ağlına təbii olaraq iki fikir gələcəkdir. Birincisi; bu məntiqi sonu puça çıxardan əsri-səadət dövrü. İkinci də; torpağı işğal altında olan xalqımız. Səhabələr Məkkədən Mədinəyə hicrət etdikləri zaman zillətə düçar olmamalarının ən böyük səbəbi Peyğəmbərimizin yanlarında olması və yenə Peyğəmbərimizin məkkəli muhacirlərlə mədinəli ənsarı qardaş elan etməsi olmuşdu. Bunun üçün xalqımızın zillətə düçar olmamaları üçün Peyğəmbərimizin sünnəsinə sarılmağa bu gün daha çox ehtiyac duyulmaqdadır.

Bu gün qaçqınlara bəzi insanlar tərəfindən arsız və üzsüz deyilir. Bunu söyləyən insanların sözünü doğru çıxaran qaçqınlar əlbəttə vardır. Amma bunun

Gəlin anlayaq ki, qaçqın həyatı yaşamaq özü böyük bir əzabdır. Buna görə onlara mənəvi əzab verməyə heç kəsin haqqı yoxdur. Bütün bunlarla bərabər biz inanırıq ki, Azərbaycan dövləti hansı vasitə ilə olursa-olsun torpaqlarımızı azad edəcək, qaçqın və məcburi köçkünlərimiz öz ata-baba yurdlarına qayıdacaqlar.

səbəbini araşdıranda bəzi həqiqətlər qəhər olub boğazımızda düyünlənir.

Kəndimizdə əsil-nəcabətli, hər zaman geyim-keçiminə çox diqqət edən, hər kəsin hörmət bəslədiyi, sözü qanun olaraq bilinən bir ağsaqqal vardı. Hər kəs üzləşdiyi problemi onun məsləhəti ilə həll edərdi. Torpağımız erməni işğalçıları tərəfindən zəbt edildikdən sonra həmin ağsaqqalın taleyinin nə olduğundan xəbərim olmadı. Çünki kimin hara qaçıb getdiyindən heç kimin xəbəri yox idi. Aradan 16 il keçmişdi. Bir gün nar almaq üçün Göyçayın bir kəndinə getmişdim. Maşını 6-7 nəfər nar alverçisinin yanında saxladım. Bunlardan 10 metrə kimi uzaqda tək başına üstü-başı toz içində, saçı saqqalına qarışmış, daşın üstündə oturan bir adam diqqətimi çəkdi. Bu adamı üzdən kiməsə bənzədirdim. Onu izlədiyimi fərq etmişdi. Demə, o da gözucu məni izləyirmiş. Qəflətən oturduğu daşın üstündən qalxıb sürətlə oradan uzaqlaşmağa başladı. Onun bu hərəkəti hamının diqqətini çəkdi. Arxasından Əli kişi, xeyir ola, hara tələsirsən, bir şeymi oldu deyə səslənsələr də bizə tərəf çevrilmədi. Bayaqdan diqqətlə süzdüyüm bu adamın kim olduğu artıq mənə məlum idi. Bu, kəndimizdə hörmət bəslədiyimiz həmin Əli dayı idi. Əli dayını tanısam da oradakılardan kim olduğunu soruşdum. Əli dayının qaçqın olduğunu, müharibədə dörd övladından üçünün əsir düşdüyünü, bir oğlunun da şəhid olduğunu, hal-hazırda yoldaşıyla birlikdə kəndin məktəbində yaşadıqlarını, imkanları olmadığı üçün kənd camaatının onlara baxdıqlarını söyləyəndə yerimdə donub qaldım. Adamlardan biri belə davam etdi: "İlk günlər ona köməklik niyəti ilə evlərinə getdiyimizdə çox pərt olurdu. ***"Bu qonaqpərvərliyinizə görə sizə təşəkkür edirəm, amma xahiş edirəm bir də bizi belə utandırmayın" deyərdi. Ancaq zamanla bu vəziyyətə alışdı."*** Bir an kəndimizdəki Əli dayı gözümün önündə canlandı. O Əli dayı ki, bəy kimi dolanar, heç kimə əl açmaz, əksinə hər kəsin əlindən tutar, ağsaqqallığı ilə seçilərdi. Əli dayının oradan nə üçün uzaqlaşdığı artıq məlum idi. Buna mən səbəb olmuşdum. Çünki Əli dayı məni tanımış və onu bu şəkildə görməyimə dayana bilməmişdi.

Gəlin anlayaq ki, qaçqın həyatı yaşamaq özü böyük bir əzabdır. Buna görə onlara mənəvi əzab verməyə heç kəsin haqqı yoxdur. Bütün bunlarla bərabər biz inanırıq ki, Azərbaycan dövləti hansı vasitə ilə olursa-olsun torpaqlarımızı azad edəcək, qaçqın və məcburi köçkünlərimiz öz ata-baba yurdlarına qayıdacaqlar.



GÖRKƏMLİ ŞAİR MƏMMƏD ASLANLA REPORTAJ:

GÖRKƏMLİ ŞAİR MƏMMƏD ASLAN:

“MÖVLANA ƏN BÖYÜK KÖNÜL İNSANIDIR”

İrfan jurnalı: Məmməd müəllim, siz dəyərli şeirlərinizlə Azərbaycan oxucusuna kifayət qədər tanış simasınız. Sizdə Anadulu türkcəsindəki kitabları, o cümlədən Osman Nuri Topbaş bəyəfəndinin kitablarını Azərbaycan türkcəsinə uyğunlaşdırmaq fikri hansı istəkdən yaranmışdır?

Məmməd Aslan: Anadolu türkləri və azəri türkləri əslində bir millət olduğu halda, əfsuslar olsun ki, bir-birimizdən ayrı düşməyimiz bizi özümüzə qarşı uzun zaman ərzində yadlaşdırmışdır. Bəzən bəzi ağzıgöyçəklər deyirlər ki, mən Anadolu türkcəsindəki yazını tərcümə etmişəm. Ay qafil, hansı dili, hansı dilə tərcümə edirsən? Bu, sadəcə yazını azəri türkcəsinə uyğunlaşdırmaqdır. Çünki bizim soyumuz bir, dilimiz bir, dinimiz birdir. İki qardaş dili bir-birinə tərcüməmi etmək olar?

Bəzən bəzi ağzıgöyçəklər deyirlər ki, mən Anadolu türkcəsindəki yazını tərcümə etmişəm. Ay qafil, hansı dili, hansı dilə tərcümə edirsən? Bu, sadəcə yazını azəri türkcəsinə uyğunlaşdırmaqdır. Çünki bizim soyumuz bir, dilimiz bir, dinimiz birdir. İki qardaş dili bir-birinə tərcüməmi etmək olar?

O ki, qaldı mənim daha çox Osman bəyin əsərlərinə mürüciət etməyimə, bunun bir səbəbi var: Osman bəyin haqqı, ədaləti, insani münasibətləri zirvədən təbliğ eləyən, mənəvi dəyərləri örnək gətirərək yazdığı əsərləri oxuyub düşündüm ki, şükürlər olsun, qələm hələ müsbət mənada iş görür; qələm hələ ömürləri təzələməyə, dünyaya ibrət gözü ilə baxmağa davam edir!

İrfan jurnalı: Bu gün artıq ikinci nəşri işıq üzü görən "Mövlana Dərgahından Əsintilər" kitabı da elə bu istəkdənmi meydana çıxdı?

Məmməd Aslan: ...Osman bəy kitabını bir gün əvvəl mənə bağışlamışdı. İndi də onunla birlikdə İstanbuldan Bakıya uçurduq. Məndən əvvəlki oturacaqda Türk aləmində möhtərəm ağsaqqal sayılan və Türkiyə Böyük Millət Məclisinin sabiq deputatı olan Nevzat Yalçıntaşla çox şirin söhbətə qarışmışdı başları.

"Bir kuzə su" kitabından elə təyyarədəcə xeyli oxumuşdum. Mövlana Həzrətlərinin fikir və düşüncə dünyası ilə bu, ilk tanışlığım idi.

Türk düşmənləri uzun zaman ərzində soyumuzun abidə insanlarını yaxından tanımağa imkan verməmişlər. Dünyada insanlar Mövlananı dərindən tanıdıqları halda, biz ondan heç nə bilmirdik. Bir sözlə, soyumuzun tarixini və tarixi şəxsiyyətlərini tanımırdıq. Zaman utansın!..

Elə təyyarədəcə Mövlananın bu gözəl tanıtma kitabını Azərbaycan türkcəsinə uyğunlaşdırmağı özlüyümdə qətiləşdirdim.

Osman bəyin çiyininə astaca toxunmaqla təzəcə gəldiyim fikri ona bildirdim.

Təbəssüm etdi.

-Amma, Osman bəy,- dedim, -Azərbaycan nəşrinin adını "Bir kuzə su" -qoymayacağam.

Nevzat bəy Osman bəydən öncə soruşdu:

–Hələ de görək, bəs necə adlandıracaqsan?

–"Mövlana Dərgahından Əsintilər". Elə bilirəm, bu, bizim oxucular üçün daha maraqlı və diqqət çəkici olar. Oxucunu mövzuya əvvəlcədən hazırlayar bu ad.

Nevzat bəy sağ əlini Osman bəyin çiyninə qoydu (bununla sanki saqqaldaşını razılığa gəlməyə çağırdı):

–Gözəl, çox gözəl! Kitabın adından da oxucu bilər ki: burada Mövlana gülüstanından bəhs olunur!

Osman bəy təkrar təbəssüm etdi.

İrfan jurnalı: Məmməd müəllim, belə çıxır ki, kitabın müəllifi Osman bəy olsa da, adının müəllifi sizsiniz? Bəs niyə "Mövlana dərgahından əsintilər?"

Türk düşmənləri uzun zaman ərzində soyumuzun abidə insanlarını yaxından tanımağa imkan verməmişlər. Dünyada insanlar Mövlananı dərindən tanıdıqları halda, biz ondan heç nə bilmirdik. Bir sözlə, soyumuzun tarixini və tarixi şəxsiyyətlərini tanımırdıq. Zaman utansın!..

Məmməd Aslan: Kitabı ilk vərəqlədiyim zaman özümü bir anlıq ulu Mövlananın dərgahında hiss etdim. Elə bu səbəbdən də belə bir ad yarandı.

Füsunkar bir bağçaya ilkin girə bilmənin həyəcanı uzun zaman sürür. Gəliş-gediş davam eləyəndən sonra belə, o təəssürat köhnəlmir. Sadəcə olaraq oraya vaxt-bivaxt baş çəkmək, əlvan gül-çiçəklə tənəffüs etmək bir vərdişə çevrilir...

Osman Nuri Topbaşın "***Bir testi su" ("Bir kuzə su")*** kitabı ilə Mövlana Cəlaləddin Rumi gülzarına qapı açılışı eynən belə oldu: səkkiz yüz il öncə salınmış bağçanın sirli-sehrli rayihəsi bizi çox tezcə özünə çəkdi. Fikir və düşüncənin əbədiyaşarlığı ilə qarşılaşdıq; insan ruhunda asanlıqla təbəddülat yaradıb bizi bizdən alan və bizə qaytara bilmə sehri ilə üz-üzə gəldik. Mövlana nə qədər haqlı deyirmiş: "Kitablardan öncə özümüzü oxuya bilməliyik." Onda ilkinliyimizə boylanma, qəlbimizdəki sirli aləmə ipucu tapma asanlaşırmış!.. Mövlananı oxuyan kimsə insanla heyvan arasındakı fərqin bir ədəbdən ibarət olmasına heyrət eləyir. Şair insan oğlunun torpaqdan yarandığını tez-tez dilə gətirir: xəmirin ondan yaranıb, ona bənzəmirsənsə, deməli, əslini danırsan; torpaq yaşıllıqları ilə eybəcərliklərin üstünü örtdüyü kimi, sən də idbarlıqların, yaramazlıqların ortadan qaldırılmasına cəhd göstərməyəcəksənsə, dünyaya gəlişinin nə qayəsi olar?!.

Düha böyük olduqca onun fikir və düşüncəsinin anlaşılması çətinləşir. Bu kimi hallarda onunla oxucu arasında bir xeyirxah qələm əhli bələdçilik zəhmətinə qatlaşmalıdır; gediləsi, dərk olunası zirvəni "yaxına çəkməyi" boynuna götürməlidir.

Osman Nuri Topbaş Mövlana karvanının çox bacarıqlı və səriştəli sarvanıdır. Artıq bu bəyəfəndi bir Mövlana xiridarı səviyyəsində qələm çalır. Başqa mövzulara meyillənəndə də fikrini əsaslandırmaq və nurlandırmaq istəyi ilə Mövlana dərgahına növbəti nəzəri əhmal etmir. Hətta Quran mövzularında belə. Mövlananın "Məsnəvi"si əslində, elə Quranın çox müəzzəm təfsiri sayılmaqdadır. Sadəcə olaraq Mövlana Həzrətləri Quran mövzularını süjetlər, hekayələr biçimində (və şəklində) işləyərək, onun təfsirini kütləviləşdirmiş, geniş oxucu dünyasına yaxınlaşdırmışdır.

Ayrıca, Türk varlığının və İslamın böyük mübəlliği və müdafiəçisi ***Məhmət Akif Ərsoyun*** mürşidi ***Fərid Kam*** buyurur ki: *"Mövlana həzrətləri Allahın bir ayəsidir! Biz onu oxuduğumuzu, anladığımızı zənn edirik... Heyhat! Mövlana ən azı yetmiş qat büründək altındadır. (Biz onun hansı qatına qədər yaxınlaşa bilərik ki?!) Sanki Mövlana həzrətləri qalın bulud layları arxasındakı bir*

Günəşdir ki, biz onu görə bilmirik; görə bilsək də, hansı yerindənsə buludu dəlib keçən bir şüasının aydınlatdığı azacıq parçasını seçə bilirik. Bu halla da onu anladığımızı zənn edirik...”

Hələ bizim kimi uzun müddət örf-adətindən, dini inanclarından, Allah və Peyğəmbərindən cəbrən aralanmış bir qövm Mövlana nəhənglikdə bir filosof şairi nə dərəcədə oxuyub anlaya bilər?!.

Belə düşünürəm ki, çağdaş Azərbaycanda Mövlanaya maraq yolu ***“Mövlana Dərgahından Əsintilər”*** kitabı ilə başlandı və yaxın illərdə ölkəmizdə Mövlana yaradıcılığına həsr olunmuş tədbirlərin keçirilməsində bu kitabın böyük təsiri oldu.

İrfan jurnalı: “Mövlana Dərgahından Əsintilər” kitabının ikinci nəşri də elə bu oxucu marağındanmı qaynaqlanır?

Məmməd Aslan: Bəli. Bir az əvvəl qeyd etdiyim kimi, “Mövlana Dərgahından Əsintilər” kitabı Azərbaycanda doğrudan, ədəbi bir hadisə kimi qarşılandı: Qoca Şərqin ulu şairi birdən-birə bahar qədəmləri ilə oxucularımızın maraq dünyasına qədəm basdı.

Kitab əldən-ələ gəzirdi: Beş min nüsxə tiraj birdən-birə təşnə sahiblərini tapdı. Bir kitabı növbə ilə neçə adam oxuyurdu. Hər kəs itirdiklərimizin, fürsət tapıb tanıya bilmədiklərimizin fərqinə sanki təzəcə varmışdı. Demə, ***“cidanı çuvalda gizlədən”*** düşmənlərimiz ruhumuzu yavan qoymağı böyük günah və zülmlə yerinə yetirməyi bacara bilmişlər. Füzuli demiş: “Dust bipərva, fələk birəhim, dövran bisükun...”

Osman bəy sözün həqiqi mənasında, böyük bir poeziya qitəsini, mütəfəkkir filosofu, sufi ədəbiyyatının yaradıcılarından öncül bir abidə insanı dünyamıza örnək olaraq gətirmək savabı qazandı həm də!

Kitabın yeni işıq üzü görən ikinci nəşri ***İpək Yolu Nəşriyyatı*** tərəfindən hazırlanmış və yenidən işlənib təkmilləşdirilmişdir. Osman Nuri Topbaş bəy kitaba gərəkli əlavələr etmişdir. Əminəm ki, oxucu Cəlaləddin Rumini əvvəlki nəşrdən daha ətraflı tanıya biləcəkdir.

Mövlana kimi mənəvi dəyərlərimizi tanıdıqca öz varlığımızın qiymətini daha dərindən dərk etmə fürsəti əldə edəcəyik. Allaha şükürlər olsun ki, son zamanlar türk soyunun böyük şəxsiyyətlərini tanımağa qeyrət göstərməyə başlamışıq...

İrfan jurnalı: Məmməd müəllim, qeyd etdiyiniz kimi, kitab artıq ilk nəşri ilə özünə kifayət qədər oxucu kütləsi qazanmışdır. Ancaq kitabı hələ oxuma imkanı tapmamış oxucular üçün kitabın əhatə etdiyi mövzuları qısaca xülasə edəcək olarsaq, nələri qeyd edə bilərsiniz?

Məmməd Aslan: Elə bilirəm, kitabın mövzusu və qayəsi barədə kifayət qədər tanıdıcı söhbət etdik; qalanları oxucunun qatlaşacağı qayğılardır. Xörək masanın üstünə qədər gətirilibsə, dadını yeməklə bilərlər, deməklə yox.

İrfan jurnalı: Sizcə Azərbaycan ədəbiyyatında Mövlana kifayət qədər tanınırmı? Bu gün bu istiqamətdə görülən işlər sizi qane edirmi?

Məmməd Aslan: Mövlana artıq görünən dağdır. Dağın seyrü-səfası təkcə görməklə bitmir. Bu poeziya nəhəngi olan mütəfəkkir şairlə təzəcə bir araya gəlmişik, elə bilirəm. Onun səkkiz yüzillik yubiley ilində Anadoluda olduğu kimi bizim məmləkətimizdə də xeyli tanıtma məsələləri aşılanmağa qeyrət göstərildi. Bunu ancaq bir başlanğıc saymaq olar. Mövlana zirvəsinin sehri get-gedə artacaq, inşallah! Ədəbi nəhənglər oxunduqca böyüyür; dərkinə maraq artır. Biz Mövlana gülzarına hələ düz-əməli boylanma macalına çatmamışıq?!.

Lokman HELVACI • lokman_helvaci@hotmail.com

HƏDİSLƏRDƏ ZİKR-1

Allahı zikr etmək Allah Rəsulu -səllallahu əleyhi və səlləm- tərəfindən də təlim, təşviq və təlqin edilmişdir. Bu qədər önəmi olan bir ibadətin feyzindən uzaq qalmaq çox böyük bir itkidir. Ancaq bu ibadət layiqincə yerinə yetiriləndə axirətə bağlı olan bir çox nemətləri insana bəxş edir. Deməli, bunun əksi acı bir məhrumiyyətdir.

Hz. Peyğəmbər (s.ə.s)-in hədisi-şəriflərində zikr mövzusu geniş olaraq izah edilmişdir. Bu hədislər içərisində ümumi mənada zikrə təşviq edən çox təsirli təşbeh və təmsillə ifadə edilən bir neçəsini sizinlə paylaşmaq istəyirəm:

Bunlardan ilki Rəbbimizi daha çox zikr etməyə, Ona daha çox təzim etməyə təşviq etməkdədir. Xüsusilə hədisin sonundakı əfv səhnəsi çox diqqətçəkicidir. Hər halda indidən diqqətinizi çəkdi. Sizi hədislə baş-başa qoyuram:

Əbu Hüreyrə (r.a) rəvayət edir: "Rəsulullah (s.ə.s) buyurdu ki: "Allahın yollarda dolaşıb zikr edənləri axtaran mələkləri vardır. Allah təalanı zikr edən bir qrupla rastlaşdıqda birbirini ora çağırarlar. (Hamısı gəlib) zikr edənləri qanadları ilə dövrələyərək dünya səmasına qədər olan aranı doldurarlar. Onların halını ən yaxşı bildiyi halda Allah mələklərdən soruşar:

- Bəndələrim nə edirlər?

- Səni təsbih edir, təkbir gətirir və həmd edirlər. Sənə təzim edirlər, –deyə cavab verərlər. Allah təala yenə soruşar:

- Onlar məni gördülərmi?

- Xeyr!

- Görsəydilər nə edərdilər?

- Əgər Səni görsəydilər, əlbəttə ki, daha çox ibadət edər, daha çox təzim və təsbiih edərlər, –deyə cavab verən mələklərdən bu səfər Allah təala soruşar:

- Onlar nə istəyirlər?

- Səndən cənnəti istəyirlər."

- Cənnəti gördülərmi? -deyər.

- Xeyr, ey Rəbbimiz! -deyərlər.

- Görsəydilər nə edərdilər?

- Əgər görsəydilər cənnətə daha çox can atar, onu daha israrla istər, ona daha çox rəğbət göstərərdilər. Allah təala soruşmağa davam edər:

- Nədən mənə sığınırlar?

- Sənə cəhənnəmdən sığınırlar, -deyərlər.

- Onu gördülərmi?

- Xeyr, görmədilər.

- Görsəydilər nə edərdilər?

- Əgər cəhənnəmi görsəydilər, ondan daha şiddətlə qaçar və daha şiddətlə qorxardılar.

Sonra Allah təala belə deyər:

- Şahid olun ki, onları əfv etdim. Rəsulullah (s.ə.s) sözünə davam edərək bunları söylədi:

Onlardan bir mələk deyər ki: "Bunların

Müsəlman namaz və zikr üçün məscidi özünə yurd etdiyi zaman (tez-tez getməyi vərdiş halına gətirdikdə) Allahın onun bu halından duyduğu sevinc eynilə qürbətdən gələn qohumuna qovuşan adamın sevinci kimidir." (K. Sittə, 6198)

arasında filan günahkar bəndə də var. Bu, onlardan deyil. O, başqa məqsədlə gəlmişdi, təsadüfən onlara qarışdı." Allah təala: "Onu da əfv etdim. Onlar elə bir qrupdur ki, onlarla oturanlar bədbəxt olmazlar" buyurar." *(Buxari, Dəavat 66; Müslim, Zikr 25; Tirmizi, Dəavat 140)*

Bu hədisi-şərifdə Allah təalanın Quranda buyurduğu ***"Salehlərlə bərabər olun!"*** əmrinin bərəkətini görürük.

Bu dünya həyatında Rəbbimizi nə qədər çox və nə ölçüdə dərindən hiss edərək ansaq, sabah axirətdə ilahi vüsala bu ölçüdə nail olacağımız şübhəsizdir.

Allahın iftixarı

Rəbbimizin mələklərə qarşı iftixar etdiyi bəndələrdən olmaq istəməzsinizmi? Əgər belə bir arzunuz varsa bu hədisi diqqətlə oxuyun:

Abdullah bin Amr (r.a) rəvayət edir: ***"Rəsulullah (s.ə.s) ilə birlikdə axşam namazını qılmışdıq. Namazdan sonra camatdan bəziləri evlərinə getdi, bəziləri isə məsciddə qaldı. Çox keçmədən Rəsulullah (s.ə.s) sürətlə, sanki qaçaraq gəldi. Bizə dedi ki: "Müjdələr olsun! Rəbbiniz səma qapılarından birini açmış, mələklərə qarşı sizinlə iftixar edir və belə deyir: Bəndələrimə baxın! Fərzlərini ədа etdilər, indi də o biri namazı gözləyirlər."*** *(K.Sittə, 6199)*

Allahın sevinci

Biz bəndələr bir-birimizi sevindirə bilərik. Bəs, bizi yaradan Allahı sevindirə bilərikmi? Bu sualın cavabını Peyğəmbər (s.ə.s) Əbu Hüreyrə (r.a)-ın rəvayət etdiyi hədisdə belə verir:

Rəsulullah (s.ə.s) buyurdu ki: ***"Müsəlman namaz və zikr üçün məscidi özünə yurd etdiyi zaman (tez-tez getməyi vərdiş halına gətirdikdə) Allahın onun bu halından duyduğu sevinc eynilə qürbətdən gələn qohumuna qovuşan adamın sevinci kimidir."*** *(K. Sittə, 6198)*

Bu iki hədisi-şərif bizə insanın yaradılışına etiraz edən mələklərə Rəbbimizin cavabını xatırlat$madımı? Sanki Rəbbimiz o günü xatırladırmış kimi bizimlə iftixar edir və Onu zikr etməmizdən böyük sevinc duyur. Elə isə edəcəyimiz iş bəllidir. Harada olsaq bizimlə birlikdə olan, bizə şah damarımızdan yaxın olan Allahı çox zikr edərək, səhər-axşam Onu təsbih edərək Rəbbimizi dünyada ikən sevib-sevindirib axirətdə ***"girin cənnətimə"*** xitabına nail olaraq xoşbəxtliyə çatmaqdır.

KİÇİK HADİSƏLƏR

* Bir nəfər dostuna həyatı Quranla canlandırmağın əhəmiyyətindən bəhs edirdi.

* Dostu: *"Doğru deyirsən, amma vaxt tapa bilmirik"* -dedi.

* Əslində isə ona bu tövsiyələri edən adamın işi daha çox idi. Lakin vaxt tapa bilirdi.

* Yoldaşı *"Necə vaxt tapırsan? Sənin bu halına məəttələm"* dediyi zaman

* *"Quranla həmhal olmaq üçün aylar, günlər, hətta saatlar güdmürəm. Hər gün bir dəqiqə, üç dəqiqə halında boşa gedən o qədər vaxt var ki... Vaxtın sirri o kiçik dəqiqələrdədir."* -deyə cavab vermişdi.

ABİ-HƏYAT

Osman Nuri TOPBAŞ

PEYĞƏMBƏR ƏXLAQININ SƏHABƏLƏRDƏKİ TƏZAHÜRLƏRİ -1

O möminlər xoşbəxtdirlər ki, Həzrət Peyğəmbərimizin və onun seçkin səhabələrinin məhəbbət eşqindən bir pay alaraq qəlblərinə imanın ləzzət və vəcdini, könüllərinə Quranın ruhaniyyətini, ruhlarına xidmətin sevincini, vicdanlarına gözəl əxlaqın parlaqlığını yerləşdirib əbədi səadətin bitib-tükənməyən mənəvi həzzi içində yaşayırlar.

Şübhəsiz ki, İslam dininin ən qiymətli əsri dünyanın peyğəmbərlik nuru ilə aydınlandığı ***"Əsri-Səadət"dir.*** Allah Rəsulu (s.ə.s) və Onun seçkin səhabələri o gözəl dövrün ən qiymətli zinətləridir. Onlar insanlığın ucala biləcəyi ən son həddə nail olmuşlar.

Rəsuli-Əkrəmi iman nuru ilə görərək ilayi-kəlimətullah (Haqq dininin, islamiyyətin yayılması və şərəfinin ucaldılması) uğrunda canlarını və mallarını göz qırpmadan verən və bundan bəxtiyarlıq duyan səhabələr elə bil ki, Məhəmməd ümmətinə bəxş edilmiş hədiyyələrdir. Bu baxımdan, iman şərəfinə sahib olan bir könül uca dinimizin günümüzə qədər gəlməsində əhəmiyyətli dərəcədə xidmətləri olan ***"seçkin səhabə"***lərə hörmət, məhəbbət və minnətdarlıq duyğuları ilə dolu olmalıdır. Onlardan birinin adı çəkildiyi vaxt, "***radiyallahu anhu", yəni "Allah ondan razı olsun!"*** - deyərək dua etmək dini və vicdani bir vəzifədir.

Onlar həm yaşadıqları zamanı, həm də özlərindən sonrakı dövrləri bəzəyirlər. Onlarla qaranlıqlar nura qərq oldu, qış bahar oldu. Onlar bəşəriyyətə dərin bir təfəkkür və hissiyyat dünyası qazandırdılar. Onlar insanı özünə tanıtdırdılar və ona dünyanın yaradılış hikmətini öyrətdilər.

Aləmlərin fəxri Həzrət Peyğəmbər

Allah-təala Həzrət Peyğəmbərin (s.ə.s) sünnəsinə tabe olaraq onu nümunə götürməyi, rizasının və məhəbbətinin qazanılmasına səbəb etmişdir. Buna görə də, İslam dinində əsas müraciət olunan iki qaynaq vardır: Biri Allahın Kitabı, digəri isə Rəsulullahın sünnəsidir.

(s.ə.s.) zülm və anarxiya içində boğulan bəşəriyyəti imanın ən dəyərli meyvəsi olan mərhəmət və şəfqətlə qucaqladı. O, rəhmət və məhəbbət dolu davranışlar göstərərək insanlığa əbədi nümunə oldu. Qısa müddətdə elə parlaq və nəzakətli bir ümmət yetişdirdi ki, onların həyat hekayəsi qiyamətə qədər bəşəriyyətə fəzilət tabloları göstərib könüllərə rahatlıq qaynağı olacaqdır.

Çünki onlar bütün hiss və davranışlarını Allahın riza istiqamətinə yönəltdilər. Bütün enerjilərini ilayi-kəlimətullah uğrunda fikirləşmədən verdilər. Onların nəzərində həyatın ən zövqlü və mənalı anları bəşəriyyətə tövhid mesajını təbliğ etdiyi vaxtlardı. Edam olunduğu əsnada son arzusunu həyata keçirmək üçün üç dəqiqəlik imkan verilən səhabə bu imkanı verən haqdan məhrum bədbəxtə təşəkkür etdi və:

"Bu üç dəqiqəni mənə bağışladığın üçün sənə nə qədər minnətdaram! Çünki bu üç dəqiqədə bəlkə də sənə tövhid həqiqətini təbliğ etməyim üçün bir şans olar."

Valıq Nurunun istək və mərhəmət torpağında yetişən səhabələri tərif edilməsi mümkün olmayan bir eşq iqlimində yaşadılar. Onların ibadətlərindəki ruhaniyyət, əməllərindəki zəriflik, incəlik, əxlaqlarındakı nəzakət, könüllərindəki lətiflik, duyğularındakı daxili dərinlik və incəliklər, həmişə Varlıq Nurundan əks edirdi.

Aləmlərin əbədi fəxri Həzrət Peyğəmbəri (s.ə.s) nümunə götürən səhabələrin yüksəldikləri əxlaqi səviyyəni əks etdirən saysız hədislər vardır. Səhabələrin Həzrət Peyğəmbərə (s.ə.s) bəslədikləri dərin eşq və məhəbbətləri ilə malik olduqları mənəvi səviyyəni, duyğu dərinliyini və davranışlarının mükəmməlliyini söz ilə izah etmək mümkün deyil. Onların davranış mükəmməlliyini açıqlayan saysız misallardan bir neçəsini təqdim edirik:

Əshabın mömin qardaşını özündən üstün tutduğunu göstərən aşağıdakı hekayələr İslam əxlaqının ən gözəl nümunələridir.

Günlərin birində Allah Rəsulu (s.ə.s) Bəni-Nadirdən alınan qənimətləri mühacirlərə vermiş, ənsardan isə yalnız ehtiyacı olan üç nəfərə pay ayırmış, sonra ənsara xitab edərək belə buyurmuşdur:

"Əgər istəyirsinizsə, daha əvvəl mühacirlərə verdikləriniz onlarda qalsın, siz də bu qənimətdən pay alın. Yox, əgər istəmirsinizsə verdiklərinizi geri alıb bu qənimətin hamısını onlara verə bilərsiniz."

Bu sözləri böyük diqqətlə dinləyən ənsar mömin qardaşlarını özlərindən üstün tutaraq belə cavab vermişdir:

"- Ey Rəsulullah! Mühacir qardaşlarımı-

Peyğəmbər (s.ə.s): "Ümmətim bir yağışa bənzəyir. Əvvəli, yoxsa axırı xeyirlidir bilinmir." (Tirmizi, Ədəb 81) buyurmuşdur. Bu hədisi-şərif Həzrət Peyğəmbəri görmək xoşbəxtliyindən məhrum olan bizim kimi möminlər üçün böyük bir təsəlli və ümid yeridir.

za həm mallarımızdan və evlərimizdən pay ayırır, həm də qənimətin hamısını onlara veririk."

Bu hadisədən sonra aşağıdakı ayə nazil oldu:

"Onlardan (mühacirlərdən) əvvəl (Mədinədə) yurd salmış və (Muhəmməd əleyhissəlama qəlbən) iman gətirmiş kimsələr (ənsar) öz yanlarına (şəhərlərinə) mühacirət edənləri sevər, onlara verilən qənimətə görə ürəklərində həsəd (qəzəb) duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar. (Allah tərəfindən) nəfsinin xəsisliyindən (tamahından) qorunub saxlanılan kimsələr - məhz onlar nicat tapıb səadətə (cənnətə) qovuşanlardır!" *(Həşr surəsi, 9)*

Cabir (r.a) ənsarın mühacir qardaşlarına yardım və diqqət göstərdiklərini belə izah edir:

"Ənsar xurmalarını iki hissəyə ayıraraq, bir tərəfə çox, bir tərəfə isə az xurma qoyardı. Sonra isə az olan tərəfə xurmanın budaqlarından qoyar (çox görünməsi üçün) və mühacirlərə "-Hansını istəyirsinizsə onu götürün", - deyərdi. Onlar da çox görünən tərəfi ənsardan olan qardaşlarımızın olsun deyə, az görünən hissəni alardılar və beləliklə xurmanın çox hissəsi mühacirlərə düşərdi. Ənsar da bu yolla az olan qismi özlərinə götürərdi." *(Heysəmi X, 40)*

Səhabələr Allah-təalanın onlara əmanət verdiyi dünya səltənətində heç bir vaxt qürur və lovğalıq kimi nəfsani hisslərə qapılmayaraq, Həzrət Peğəmbərin (s.ə.s) həmişəki sadə həyat tərzini özlərinə nümunə götürmüşdülər.

Belə ki, Salman (r.a) Mədain valisi olduğu zaman yolda Şamdan əncir gətirən Teym oğulları qəbiləsinə mənsub bir nəfərlə rastlaşır. Həmin şəxs özü ilə əncir gətirmişdi. Salmanın əynində bir köynək, bir də əba olduğunu görən Şamlı tacir Salmanı təbii ki, tanımır. Onu bu halda görüncə, ***"gəl bu ənciri daşı!",*** - deyir.

Salman (r.a) bir söz demədən yükü kürəyinə alaraq aparır.

Xalq Salmanı görüncə tanıyır. O şəxsə:

"- Yükünü daşıyan bu şəxs validir!" - deyirlər. Şamlı:

"- Tanımadım sizi" - deyərək üzr istəyir. Amma Salman (r.a):

"- Heç bir eybi yoxdur, yükü evinə aparana qədər kürəyimdən yerə qoymayacağam, deyərək ona cavab verir. (İbn Səd, ət-Tabaqatul-Kubra, IV, 88)

Salmanın (r.a) bu halı hansı məqam və vəzifədə olmasına baxmayaraq, insanı təvazökar olmağa təşviq edir.

"Rəhmanın (əsil) bəndələri o kəslərdir ki,

"Möminin vəziyyəti həqiqətən qibtə edilməyə və heyran olmağa dəyər. Çünki hər halı özü üçün bir xeyir vəsiləsidir. Belə bir xislət sadəcə mömində vardır: Mömin sevinəcək olsa, şükür edər; bu onun üçün xeyirli olar, başına bir bəla gələndə, səbir edər; bu da onun üçün xeyirli olar." (Müslim Zöhd, 64)

onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər...” *(əl-Furqan surəsi, 63)* ayəsi əyani bir nümunədir.

Səhabələrin cəmiyyətdəki yetimləri qoruyub, onları himayələrinə aldıqlarını ifadə edən bu hadisə də İslamdakı ictimai yardımlaşma ruhunun və tək bir yumruq olmanın ən gözəl misalıdır:

Bəra bin Azib (r.a) Rəsuli-Əkrəmin (s.ə.s) Məkkə səfərindən bir il əvvəl ümrə zamanı baş verən bir hadisəni belə nəql edir:

Allahın elçisi ümrə ibadətini tamamlayıb Məkkədən çıxmışdı ki, Uhudda şəhid olan Həzrət Həmzənin qızı Ümamə ***“əmi can! əmi can!”***- deyə çağıraraq onların arxasından qaçmağa başlayır.

Həzrət Əli (r.a.) o kiçik qızı qucaqlayır və dəvənin üstündə oturan zövcəsi Fatiməyə belə deyir:

“- Əmin qızını götür!”

Mədinəyə çatdıqları vaxt uşağın kimdə qalacağı haqqında Həzrət Əli, qardaşı Cəfər və Zeyd bin Harisə arasında fikir ayrılığı yaranır.

Həzrət Əli:

“O, mənim əmim qızıdır. Mənim haqqım daha çox olduğu üçün onun tərbiyəsi və xərcləri mənim öhdəmə düşür” -deyir.

Cəfər Təyyar:

“- O, mənim də əmim qızıdır, həm də zövcəm onun xalasıdır”, - deyir.

Zeyd bin Haris də:

“- Onun atası ilə məni Allah Rəsulu qardaş etmişdi. O, qardaşımın qızı sayılır”,- deyir.

Allah Rəsulu (s.ə.s):

“- Xala ana sayılır”, - deyərək uşağı Cəfər Təyyarın zövcəsinə verir. Sonra uşağı himayəsinə almaq istəyənlərin hər birinin könlünü alaraq:

Həzrət Əliyə:

“- Sən məndənsən, mən də səndən” - buyurur.

Cəfər Təyyara:

“- Sənin həm görünüşün, həm də xasiyyətin mənə oxşayır”, - deyir.

Zeyd bin Harisə isə:

“- Sən bizim qardaşımız, dostumuzsan”, - buyurur. (*Buxari, Sülh 6, Məğazi 44, Müslim Cihad, 90, Əbu Davud, Təlaq 35)*

Bir hədisi-şərifdə eyni ilə belə buyurulur:

“Öz yetimini və ya başqasına aid bir yetimi himayə edənlə mən cənnətdə bir yerdə olacağam”.

Hədisin ravisi Malik bin Ənəs Həzrət Peyğəmbərin etdiyi kimi, şəhadət barmağı ilə orta barmağını birləşdirdi. *(Müslim, Zöhd, 42)*

Onlar həm yaşadıqları zamanı, həm də özlərindən sonrakı dövrləri bəzəyirlər. Onlarla qaranlıqlar nura qərq oldu, qış bahar oldu. Onlar bəşəriyyətə dərin bir təfəkkür və hissiyyat dünyası qazandırdılar. Onlar insanı özünə tanıtdırdılar və ona dünyanın yaradılış hikmətini öyrətdilər.

Səhabələrin buna bənzər fəzilətlə dolu olan halları, şübhəsiz ki, onların Allah və Rəsuluna böyük bir məhəbbətlə təslim olduqlarının dünya və axirətə aid qazanc və zərəri layiqi ilə təqdir etmələrinin bir nəticəsi idi. Çünki Allah-təala Həzrət Peyğəmbərin (s.ə.s) sünnəsinə tabe olaraq onu nümunə götürməyi, rizasının və məhəbbətinin qazanılmasına səbəb etmişdir. Buna görə də, İslam dinində əsas müraciət olunan iki qaynaq vardır: Biri Allahın Kitabı, digəri isə Rəsulullahın sünnəsidir.

Kinanə əl-Ədəvi belə rəvayət edir:

Ömər bin Xəttab (r.a) ordu komandanlarına belə yazmışdı:

"Quranı əzbərləmiş şəxsləri müəyyən edib mənə bildirin, onlara bəxşiş verim və kənar yerlərə göndərim ki, insanlara Quranı öyrətsinlər."

Əbu Musa əl-Əşari Həzrət Ömərə (r.a) səlahiyyətində olan 300-ə qədər Quran hafizi olduğunu çatdırır. Həzrət Ömərin (r.a) o hafizlərə xitabən yazdığı məktubdakı nəsihətlərin bir qismi bu şəkildədir:

"Bilin ki Quran sizin üçün bir savab və şərəf xəzinəsidir. Ona tabe olun. Onu özünüzə görə şərh etməyin. Kim Quranı özünə görə şərh etsə, Quran onu üz üstə qoyar və cəhənnəmə atar. Kim də Qurana tabe olarsa, Quran onu Firdovs cənnətlərinə aparar. Gücünüz çatarsa Quranın sizə şəfaətçi olmasını, düşməniniz olmamasını təmin edin. Çünki Quranın şəfaət etdiyi şəxs cənnətə, şikayətçi olduğu şəxs də cəhənnəmə düşər. Bilin ki, bu Quran hidayət mənbəyi və elmlərin ən parlağıdır. O, Rəhmandan gələn, kor gözlərin, kar qulaqların və möhürlənmiş qəlblərin açıldığı ən son kitabdır." *(Əli əl-Müttəqi əl-Hindi, Kənzül-Ümmal, II, 285-286/4019)*

Başqa bir rəvayətdə isə belə nəql olunur:

"Səhabələr Qurani-Kərimi çox oxuyardılar, onu oxumadıqları və ya səhifələrinə baxmadıqları bir gün belə olmazdı. Günə Quranla başlayar, göz xəstəliyi olanlara da ona baxmağı tövsiyə edərdilər." *(Kəttani, Nizamül-Hükumətin-Nəbəviyyə,(ət-Təratibul-idariyyə), II, 197)*

Yərmuk müharibəsində susuz olduğu halda digər mömin qardaşlarını özündən üstün tutaraq suyu əvvəlcə onlara verin deyib, özü isə bir qurtum suya həsrət qalaraq şəhidlik şərbətini içən İkrimə (r.a) Quranı götürüb üzünə-gözünə sürtər və ***"Rəbbimin kəlamı, Rəbbimin kəlamı!"*** - deyərək ağlayardı. *(Hakim, əl-Müstədrək ələs-Sahihayn, III, 272.)*

Məhz nəbəvi əxlaqa bürünən səhabələr Quranı bu dərəcədə bir sevgi ilə baş tacı etdikləri üçün Haqq yanında müstəsna bir şərəfə nail olaraq qiyamətə qədər gələcək

Valıq Nurunun istək və mərhəmət torpağında yetişən səhabələri tərif edilməsi mümkün olmayan bir eşq iqlimində yaşadılar. Onların ibadətlərindəki ruhaniyyət, əməllərindəki zəriflik, incəlik, əxlaqlarındakı nəzakət, könüllərindəki lətiflik, duyğularındakı daxili dərinlik və incəliklər, həmişə Varlıq Nurundan əks edirdi.

möminlərin könüllərində taxt qurdular. Haqq dostlarından Həsən Bəsrinin (q.s) bu xəbərdarlığı çox ibrətamizdir:

"Səhabələr və onlardan sonrakılar Quranı Allahın bir əmri və fərmanı qəbul edir və belə davranırdılar. Gecə-gündüz ona qarşı həssaslıq göstərir, göz önündə tutur və ona uyğun hərəkət edirdilər. İndi siz Quranın hərflərinə və hərəkələrinə diqqət edirsiniz, amma içindəki ilahi təlimatlara heç fikir vermirsiniz. Hətta onu başa düşmürsünüz." *(Qandəhləvi, Fədail)*

Elə biz də, səhabələrin Quran haqqındakı həssaslığını nümunə götürüb özümüzü daxili hesaba çəkmək məcburiyyətindəyik. Çünki bütün bu nümunəvi misallar, davranış halları, kitabların sətirlərində qalsın deyə deyil, ümmətin könüllərində, iqlimində canlansın deyə günümüzə qədər gəlib çatmışdır.

Həzrət Peyğəmbəri mömin olaraq görmək şərəfinə nail olan və beləliklə ruh və iradələrini əxlaqi baxımdan mükəmməlliyə çatdıran səhabələrin əlçatmaz dərəcələrində bir neçə nümunə xatırlatdıq. Onlar bu əxlaqi fəzilət zirvələrində olduqları vaxt o uca Peyğəmbər (s.ə.s):

"***Ümmətim bir yağışa bənzəyir. Əvvəli, yoxsa axırı xeyirlidir bilinmir."*** *(Tirmizi, Ədəb 81)* buyurmuşdur. Bu hədisi-şərif Həzrət Peyğəmbəri görmək xoşbəxtliyindən məhrum olan bizim kimi möminlər üçün böyük bir təsəlli və ümid yeridir.

Çünki insanların çoxu nəfsin istəklərinə boyun əyib çox sayda mənfi təsirlərin girdabında sürüklənirlər. Lakin cəmiyyətin əslində onun üçün hüzur qaynağı və həmlə gücü olan din ilə arasında məsafə qoyduğu müasir dünyamızda, iman və əxlaqda, səhabəyə yaraşan ruh və həyəcanla yaşamağa çalışan möminlərin göstərəcəkləri feyzli əməllərin Haqq yanında çox əhəmiyyətli bir dəyəri vardır.

Hisslərin nəfsaniləşdiyi bu zamanda səmimi haqq, xeyrə həsr etdiyi zamanlardakı çox xidmətdən daha üstün və fəzilətlidir. Bu baxımdan, yaşadığımız axırzamanın bütün mənfi hallarına rəğmən əldə edə biləcəyimiz az müvəffəqiyyətin belə böyük bir mükafatla qarşılanacağı ehtimalını əsla gözdən uzaq tutmamağımız lazımdır.

Hədisi-şərifdə belə buyurulur:

"Möminin vəziyyəti həqiqətən qibtə edilməyə və heyran olmağa dəyər. Çünki hər halı özü üçün bir xeyir vəsiləsidir. Belə bir xislət sadəcə möminə vardır: Mömin sevinəcək olsa, şükür edər; bu onun üçün xeyirli olar, başına bir bəla gələndə, səbir edər; bu da onun üçün xeyirli olar." *(Müslim Zöhd, 64)*

O halda vaxtımızı min cür etiraz, bəhanə və şikayətlə keçirmək yerinə əvvəlcə özümüzü düzəldib yaşadığımız zaman və yeri buna görə qavramalıyıq.

Günümüz şərtlərində hidayət yolunu azanlara, zəiflərə, yetimlərə və əlsiz-ayaqsızlara mərhəmət dolu bir könüllə yardım əlini uzatmaq ilahi rizaya səbəb olacaq ən mühüm xidmətlərdən biridir.

O möminlər xoşbəxtdirlər ki, Həzrət Peyğəmbərimizin və onun seçkin səhabələrinin məhəbbət eşqindən bir pay alaraq qəlblərinə imanın ləzzət və vəcdini, könüllərinə Quranın ruhaniyyətini, ruhlarına xidmətin sevincini, vicdanlarına gözəl əxlaqın parlaqlığını yerləşdirib əbədi səadətin bitib-tükənməyən mənəvi həzzi içində yaşayırlar.

Allah-təala yuxarıda nəql etdiyimiz mübarək səhabələrin həyatına aid bu mənqibələrdən əldə edəcəyimiz ilhamla qəlblərimizi ehya etsin və əməllərimizi öz rizası ilə təltif etsin!

Amin!

Günümüz şərtlərində hidayət yolunu azanlara, zəiflərə, yetimlərə və əlsiz-ayaqsızlara mərhəmət dolu bir könüllə yardım əlini uzatmaq ilahi rizaya səbəb olacaq ən mühüm xidmətlərdən biridir.

İBRƏT İSTƏYƏN VARMI?

Kamran MƏMMƏDOV • kamran_mz@mail.ru

ƏGƏR İMANIN OĞURLANSAYDI?

Bir kişi böyük alim Səhl bin Abdullah Tüstərinin yanına gəlib belə dedi:

- Evimə oğru girib bəzi əşyalarımı oğurlayıb. İndi mən nə edim?

Səhl (r.a) o adama:

Sən Allaha şükür et! -dedi.

O adam:

Mən evimə oğru girdi deyirəm. Siz isə şükür etməyimi istəyirsiniz. Evinə oğru girən adam şükür edərmi?

Səhl (r.a): "Sən evinə oğru girdiyi üçün yox, şeytanın qəlbinə girmədiyi üçün şükür et! Əgər şeytan qəlbinə girib sənin imanını(inancını) oğurlasaydı, müsibət o zaman olacaqdı." -deyə cavab verdi.

GÖZLƏNİLMƏYƏN RUZİ

Hicri 32-ci ildə böyük səhabə Abdullah b. Məsud (r.a) xəstələnmişdi. Xəlifə Osman(r.a) ziyarətinə gəlmişdi. Aralarında belə bir söhbət keçdi.

- Ey Abdullah, bir şikayətin varmı?
- Günahlarım.
- İstədiyin bir şey varmı?
- Rəbbimin rəhməti.
- Sənə həkim çağıraqmı?
- Ey Osman! Həkim mənə baxdı. Xəstəliyi verən də Allahdır, məni rəhmətinə qərq edən də.
- Sənə xəzinədən yardım göndərəkmi?
- Heç bir şeyə ehtiyacım yoxdur.
- Qızların üçün olsun.
- Mən onlara "Vaqiə" surəsini öyrətmişəm. Bu surəni hər axşam oxuyan yoxsulluğa düçar olmaz və Allah ona heç gözləmədiyi yerdən ruzi verər.



DƏVƏLƏRİ HARA BAĞLAMALI?

Bir gün varlı bir adam Əbu Hənifənin yanında halından şikayət edərcəsinə belə dedi:

- Ey İmam! Mənim bir az sərvətim var. Namaz qılmağa başladıqda dəvələrim xəyalıma gəlir. Amma siz bu qədər var-dövlətə sahib olduğunuz halda rahatlıqla namaz qılırsınız. Bunu necə bacarırsınız?

Əbu Hənifə (r.a) belə cavab verir: "Mən dəvələrimi qəlbimə yox, tövləyə bağlayıram".

Rəna Mirzəliyeva

Gül bayramı

Azərbaycanın son 30 illik tarixi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun hər dəfə hakimiyyətə gəlişi bir qurtuluş oldu. 1969-cu ildən başlayaraq o, bu ölkəyə rəhbərlik etdi. O zaman keçmiş Sovet məkanında aqrar ölkə olan Azərbaycanı inkişaf etmiş sənaye və kənd təsərrüfatı respublikasına, elm və mədəniyyət ölkəsinə çevirmək üçün Heydər Əliyev müstəsna xidmətlər göstərdi. 1993-cü il oktyabr ayının 3-də xalqın ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Beləliklə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı, müstəqil dövlət quruculuğu prosesi daha etibarlı müstəviyə keçdi.

O, bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif olunmuş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxardıb. Qısa zaman kəsiyində dünyanın nəhəng dövlətlərinin mənafeyini Azərbaycanda birləşdirdi. Dövlət qurdu, dövlətçiliyi möhkəmləndirdi, vətəndaş cəmiyyətini formalaşdırdı. Dünya Azərbaycanlılarının birliyini yaratdı.

Xalqımız bu dahi şəxsiyyətə dərin sevgi, hörmət hissi olaraq bir neçə ildir onun doğum günü olan 10 may tarixini "Gül bayramı" kimi qeyd edir. Gül bayramında bağça uşaqlarının, məktəblilərin, müəssisə və şirkətlərin nümayəndələrinin, şəhərimizin sakinlərinin müxtəlif çiçək və otlardan, bitkilərdən, yarpaqlardan hazırladıqları rəngarəng tablolar öz görünüşü və ifadəliyi ilə seçilir. Uşaq təxəyyülünün həddsiz imkanlarını nümayiş etdirir, hər kəsdə xoş ovqat yaradır. Burada dünyanın müxtəlif yerlərindən gətirilmiş respublikamızın təbiətində təsadüf edilməyən güllər də az deyildir. Təbiəti sevən, təsviri sənətə həvəs göstərən uşaqlar öz istedadlarını birbaşa nümayiş etdirmək imkanı qazanmışdırlar. Onlar bayram iştirakçılarının gözü qarşısında asfalt və kağız üzərində gözəl lövhələr yaradırlar. Bu mərasimdə müxtəlif ekspozisiyalar, gülləri təsvir edən stendlər, asfalt üzərində güllərdən ibarət rəsmlər, dibçək gülləri, müxtəlif tikmələr, nadir quşlardan ibarət canlı guşələr nümayiş etdirilir.

Adem ŞAHİN • ameha0@hotmail.com

MƏN DƏ Mİ BRUT?

Palçıqdan yaranmışıq, üstəlik çiy süd əmmişik, damarlarımızda yalnız qan dövran etməmiş. Robot olsaydıq bütün pisliklərdən uzaq ola bilərdik.

İlk yalan və intriqa məkan olaraq mükəmməlliyin ən ali zirvəsində – cənnətdə yasaq meyvəni yedirmə cəhdi ilə ortaya çıxmış.

Dünya cənnətdən daha mükəmməl deyil ki, orada başlayan burada davam etməsin? Cahiliyyə dövrünə məxsus atalar sözü nə qədər də bugünkü insanları xatırladır: ***"Hansı şəhərə getsən, o şəhərin ilahına and iç!"***

Yalan və riya həyatın hər sahəsində – yeyərkən, danışarkən, qonaq qarşılarkən, məsciddə və bazarda mövcuddur. Zahirən görünən ibadətlər və qəlblərdə olan iman da münafiqlər və riyakarlar vasitəsilə paklığını itirməmişdirmi?

Molla Nəsrəddinin ***"ye, kürküm, ye!"*** lətifəsini bilirik. Ancaq kürklərin, ciplərin örtmüş olduğu haramlardan və pisliklərdən xəbərsizik.

Çörək, yoxsa biskvit yesinlər deyildiyi zaman gülməsi və etiraz etməsi gərəkənlər nə üçün başlarını yelləyib ***"tamam"*** demişlər?

Nə üçün makiyajdan özümüz üçün deyil, başqalarına yaxşı görünmək üçün istifadə edirik? Makiyajla nələri gizləməyə çalışırıq ki? Kimsəsiz adaya düşən bir insan nə qədər bəzənib-düzənər?

Son dövrlərə qədər güzgüdə riya yox idi. Nə varsa onu göstərirdi. İnsanlar güzgünü də özlərinə bənzətdilər. Lunaparklarda ***"məzəli güzgülər"*** həqiqəti tamamilə dəyişdirdi.

Nə üçün yalnız uşaqlar, dəlilər və sərxoşlar həqiqəti olduğu kimi söyləmə cəsarətinə sahibdirlər? Nə üçün ağıllı insanlarda ağıl həqiqətləri örtən bir pərdədir? Nə üçün ağıl sahibi onlarla insan kralı çılpaq gördüyü halda ***"kral çılpaqdır"*** deyə bilməmişdi. Bu bəsit gerçəyi nə üçün azyaşlı uşaq ifadə edə bilmişdi?

Körpü başlarında duranlar körpü keçildikdən sonra onlara nə deyildiyini nə tez unudurlar ki,



Ən çox yayılan zərbi-məsəllər, atalar sözləri "Bəslə qarğanı, oysun gözünü" "qoynumda ilan bəsləmişəm" kimi nə üçün yalandan, xəyanətdən bəhs edir. Aşıq Veysəl dünya əhalisinin sayı milyardları keçdiyi zamanda nə üçün bütün insanlardan üz çevirərək məşhur "mənim sadiq yarım qara torpaqdır" türküsünü söyləmişdir?

dayı deyənlərin iltifatlarından həzz alırlar?

"Zəhəri qızıl kasada verirlər" Qızıl kasalarda şərab verilənlər, diqqətli olun!

Ey bağban, bu gələnlərə cənnət üzümlərindən bir salxım da versən onları razı salmazsan. ***"Məqsədləri üzüm yemək deyil ki."***

Ey çayın yuxarısında su içən qurdun aşağıda su içən quzuya "suyu bulandırırsan" şəklindəki xitabını duyan, sus! Məntiqlə izah etsən də faydası yoxdur.....

Ən çox yayılan zərbi-məsəllər, atalar sözləri ***"Bəslə qarğanı, oysun gözünü" "qoynumda ilan bəsləmişəm"*** kimi nə üçün yalandan, xəyanətdən bəhs edir. Aşıq Veysəl dünya əhalisinin sayı milyardları keçdiyi zamanda nə üçün bütün insanlardan üz çevirərək məşhur ***"mənim sadiq yarım qara torpaqdır"*** türküsünü söyləmişdir?

Nə üçün insanlar özlərini fərqli göstərməyə çalışırlar? Meşələr balta sapı olmağa namizədlərlə dolu olduğu kimi cəmiyyətlər də qoynunda xainləri, namussuzları bəsləmirmi? Gələcəyin Brutlarını biz indidən tanımırıqmı? İnsan həyatı gecə və gündüzün bir-birini əvəz etməsi kimi xəyanət etməklə və xəyanətə uğramaqla keçibgedər. Bəzən Sezar oluruq, bəzən Brut.

Sezarın Brut tərəfindən 23 yerindən xəncərlənmiş cəsədini Romada qoyub, hz. İsanın yerini yəhudilərə xəbər verən Yəhudanı da arxada qoyub Kufəyə gedək. Kufəlilər hz. Hüseynə beyət edəcəklərinə söz verərək onu Kufəyə dəvət etdilər. Sonra da Peyğəmbər gülünün şəhid edilməsini səssiz seyr etdilər.

Məscidi-dırarın tikintisi ərəfəsində inşa işinə yardım edənlərə qibtə edənlər olmuşdu. Allah gözlərdəki xain baxışları və niyyətləri bilməzmi?

"İnsan insanın qurdudur" fəlsəfəsi bütün dünyada qəbul olunan bir gerçəkdir. 124000 şanlı peyğəmbər bu fəlsəfəyə qarşı gələrək ***"Xeyr, insanlar Adəmin övladlarıdır"***demişlər.***"Qurdun tövbəsi qoyunu görənə qədərdir"*** deyirlər. Ortada mənfəət olduqda qurdlaşan insanlara diqqət edilməli!

Xəyanətin ziddi əmanət və sədaqətdir. İman və mömin kəlməsinin əmniyyət, əmniyyət verən kimi məna kəsb etməsi diqqət çəkicidir. Hz. Yusuf kölə olduğu evdə Züleyxanın istəyindən qaçaraq sahibinə xəyanət etməmişdir. Hz. Məhəmməd (s.ə.s) də pul, məqam və mövqe təkliflərini ***"vallahi, ayı və günəşi versəniz də vaz keçmərəm"*** deyərək inancına sadiq qalmışdır.

Çuvalın altında nəm, üstündə quru buğda satan satıcıya ***"bizi aldadan bizdən deyildir"*** deyə hirslənən Allah Rəsulu (s.ə.s) çuvalın altı ilə üstü arasında təzadın olmasına belə, razı deyilkən insanın daxili ilə xarici arasındakı fərqliliyə razı olarmı? Mövlana ***"ya olduğun kimi görün, ya da göründüyün kimi ol"*** sözüylə buna işarə edir. İmam Qəzaliyə görə insanın əməlləri gecə və gündüz, qələbəlikdə və xəlvətdə öyüldüyü zaman və ya pisləndiyi zaman eyni olmalıdır. Buna əməldə tövhid deyilir.

Son söz: Peyğəmbər (s.ə.s) ***"Ümmətimin şirkə düşməsindən qorxuram"*** demişdi. Əshabi-kiram: "Bu necə olar? Ey Allahın Rəsulu, yenidən bütlərə sitayiş edəcəklərmi?" –deyə soruşduqda Rəsulullah:

"X***eyr, onlar aya, bütə, daşa tapınmazlar, amma əməlləriylə riyakarlıq edərlər."*** buyurdu. *(İbn Macə)*

KİÇİK HADİSƏLƏR

* Ər-arvad bir yerə gedəcəkdilər. Qadın "Hazıram, çıxaq" dedi. Kişi çıxdı. Qadının hazırlanıb çıxması on dəqiqə daha çəkdi.
* Kişi "On dəqiqəmi aldın" deyə söylənməyə başladı. Qadın da "Səbirsizsən" deyə cavab verdi.
* Kişi "Bağışla, gecikdim deyə bilərdin" dedi. "İkicə kəlmə."
* Qadın minlərlə söz söylədi, amma qərarlı idi, o iki kəlməni deməyəcəkdi.
* Evə qayıtdıqdan sonra kişi qadına iki kəlmə söylədi "Boşanmaq istəyirəm."

* Başqa bir ər-arvad da bir yerə gedirdilər. Qadın "Hazıram, çıxaq" dedi, kişi evdən çıxdı. Bu qadının da hazırlanıb çıxması on dəqiqə çəkdi.
* Kişi maşında gözləyirdi. Xanımı gəldikdə nə əsəbiləşdi, nə də deyindi. Oxuduğu kitabı örtdü və mühərriki işə saldı.
* Bunu bir dostundan öyrənmişdi. Belə demişdi: "Dəyişdirə bilmərik. Dğnyanın harasına gedərsən get, bütün qadınların xüsusiyyəti budur. Ən doğru olan bunu qəbul etmək və özümüzü buna görə hazırlamaqdır."
* Ağıllı düşünməyin və bu qadınlıq xüsusiyyətini qəbul etməyin ona faydası on il içərisində demək olar ki, Quranın yarısını əzbərləməsi olmuşdu.
* Oturub Quran əzbərləməyə vaxtı olmamışdı lakin belə beş dəqiqələrlə, on dəqiqələrlə ayə-ayə əzbərləmişdi.

REPORTAJ

"Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyi"nin sədri, Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənov:

Qarabağ Azərbaycanın mənəviyyat pasportu, Şuşa isə onun zümrüd tacıdır.

İrfan jurnalı: Nizami müəllim özünüz haqda qısaca məlumat verərdiniz zəhmət olmasa!

N. Bəhmənov: Özüm haqqında qısaca bunları deyə bilərəm: Mən Azərbaycan tarixində xüsusi yeri olan Qacarlar nəslinin nümayəndəsi, Qarabagda tanınmış ziyalılardan olan Keykavus Bəhmən Mirzə Qacarın ailəsində 1948-ci ildə anadan olmuşam. Orta məktəbi Şuşada bitirib Azərbaycan Politexnik İnstitutuna daxil olmuşam. İnstitutu bitirdikdən sonra Şuşada iş icraçısından tutmuş bütün Dağlıq Qarabagın ərazilərini əhatə edən Tikinti Quraşdırma Birliyinin rəisinə qədər muxtəlif vəzifələrdə çalışmışam. 1991-ci ildən Ermənistandan zorla köçürülmüş soydaşlarımız üçün mənzillərin tikilməsində fəal iştirakıma görə əməkdar mühəndis adına layiq görülmüşəm.

1992-ci il aprel ayının 8-dən Şusa rayon İcra Hakimiyyətinin Başçısı vəzifəsində çalışıram. 1992-ci ildən Daglıq Qarabagın Azərbaycanlı İmasının sədri, 1993-cü ildən isə

Respublika Prezidentinin sərəncamına əsasən Əsir və İtkin düşmüş, Girov gütürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyasının uzvüyəm. 2008-ci il aprel aynın 7-də möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının sərancamı ilə dövlət qulluğundakı xidmətlərimə görə «Şöhrət ordeni» ilə təltif olunmuşam. Dörd övladım, dörd nəvəm var.

İrfan jurnalı: Hamımızın yaralı yeri olan Dağlıq Qarabağ, Şuşa dedikdə ilk növbədə gözünüzün önünə hansı səhnələr gəlir? Xəyalınızda hansı mənzərə canlanır?

N. Bəhmənov: Şuşa Azərbaycan tarixində, mədəniyyətində, musiqi və incəsənətində mislsiz rol oynamış və təkcə Azərbaycana deyil, bütün dünyaya nəhəng sənət korifeyləri bəxş etmiş şəhər, Turk Dünyasının müqəddəs varlığıdır. Bu şəhər haqqında düşünərkən insanın gözləri önündə möhtəşəmlik, məğrurluq, əsrarəngiz gözəllik canlanır. Qarabag Azərbaycanın mənəviyyat pasportu, Şuşa isə onun zümrüd tacıdır. Ümummilli Liderimiz Heydər Əliyev Şuşanı Azərbaycan tarixinin, memarlığının, gözəlliyinin tarixi incisi kimi qiymətləndirmişdir. Heç təsadüfi deyildir ki, «Şuşasız Azərbaycan yoxdur» məşhur kəlamı da Ümummilli Liderə məxsusdur.

İrfan jurnalı: 2006-cı ildə qeydiyyatdan keçən Daglıq Qarabağın Azərbaycanlı İcması Birliyinin fəaliyyəti nədən ibarətdir? Hansı layihələr üzərində çalışırsınız və doğma torpaqlara qayıtdıqdan sonra da İcma öz işinə davam edəcəkmi?

N. Bəhmənov: ***«Daglıq Qarabağın Azərbaycanlı İcması»*** 2006-cı ildə Azərbaycan Respublikasının qanunlarına uygun olaraq İctimai Birlik formasında Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Ancaq İcma 2006-cı ildə Respublika Ədliyyə Nazirliyində qeydiyyata alınmasına baxmayaraq 1992-ci ildən fəaliyyət göstərir.

İcma 1992-ci ilin mart ayında ATGM-in Nazirlər Şurasının Helsinkidə keçirilən görüşündə Minsk qrupu çərçivəsində Dağlıq Qarabağda yaşayan erməni və azərbaycanlı icmalarının münaqişənin həllində iştirak etməsi məqsədilə maraqlı tərəflər kimi yaradılmışdır. Yarandığı gündən bugünədək İcma aparılan danışıqlar prosesində yaxından iştirak etmiş, danışıqlar prosesinin gedişini diqqətlə izləməklə yanaşı İcma üzvləri arasında izahat işləri aparmış, müxtəlif mədəni-kütləvi tədbirlər keçirmiş, Dağlıq Qarabağın tarixi, abidələri, görkəmli şəxsiyyətləri barədə məqalələrin, kitabların, bukletlərin çap olunmasını, tərcümə edilərək dünyanın müxtəlif yerlərinə yayılmasını təşkil etmişdir. Bundan əlavə biz yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsinə xüsusi diqqətlə yanaşır, istedadlı gənclərimizin orta, ali məktəblərdə yüksək təhsil almasının qaygısına qalır, imkan daxilində xarici olkələrdə təhsil alaraq Azərbaycan Respublikası üçün gərəkli mütəxssislər kimi yetişmələrinə çalışırıq. Əgər xatirinizdədirsə bu ənənənin əsası 1970-ci illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Həmin illərdə azərbaycanlı gənclər Sovet İttifaqının ən yaxşı universitetlərində təhsil almağa göndərilirdilər. Bu gun də biz bu ənənəni davam etdirərək gənclərimizin Avropanın, Amerikanın, umumiyyətlə dünyanın tanınmış universitetlərində təhsil almaları üçün onlara maddi və mənəvi köməyimizi göstəririk.

O ki qaldi sualın ikinci hissəsinə icmanın geri qayıtdıqdan sonra öz fəaliyyətinə davam edib etməyəcəyinə aid onu deyə bilərəm ki, İcma əhalinin təhlükəsiz surətdə geri qaytarıl-

ması prosesində, infrastrukturun bərpasında, ən başlıcası isə Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlı və erməni əhalisinə veriləcək statusun müzakirəsində yaxından iştirak edəcəkdir.

İrfan jurnalı: Bəziləri artıq Azərbaycanın digər rayonlarında məskunlaşdıqdan, gündüzəran qurduqdan sonra doğma torpaqlara qayıtmağın lüzumsuz olduğunu düşünür. Təəssüf olsun ki, az da olsa belə düşünən insanlar var. Bəs Nizami müəllim bu haqda nə düşünür, belə bir qənaətə sahib olan yurddaşlarına cavabı nədir?

N. Bəhmənov: Mən sualın qoyuluşu ilə razı deyiləm. Bu, dogma el-oba həsrəti ilə yaşayan köçkünlərin heysiyyəti ilə oynamaq olardı. Sizin dediyiniz kateqoriyadan olan üçbeş adamın fikrini bütün köçkünlərə şamil etmək isə ən azı ədalətsizlik olardı.

Bu gün şuşalılar Respublikanın 58 rayonunda 500-ə qədər yaşayış məntəqəsində məskunlaşmışlar. Eləcə də digər işğal olunmuş rayonların əhalisi Respublikanın demək olar ki, bütün rayonlarında məskunlaşmışlar. Hərə məskunlaşdığı rayonda ozünə pis-yaxşı şərait yaradıb. Köçkünlərin güzəranını yaxşılaşdırmaq üçün Azərbaycan dövləti bütün vasitələrdən istifadə edir. Ancaq bütün məcburi köçkünlər kimi şuşalılar da geriyə qayıdacaqları günü səbirsizliklə gözləyir və o günün yaxında olduğuna inanırlar. Bunu

deməyə mənim tam əsasım var. Belə ki, bizim əhali ilə daimi əlaqələrimiz, görüşlərimiz keçirildiyindən biz onların hansı əhval-ruhiyyədə olduğunu hamıdan yaxşı bilirik. Mən yuxarıda qeyd etdiyim bir fikri yenə təkrarlamaq istəyirəm: Şuşa təkcə Azərbaycanın deyil, bütün Turk dünyasının müqəddəs şəhəridir. Məhz bunun nəticəsidir ki, bu gün köçkün olmayan Respublikanın müxtəlif bölgələrində, eləcə də Bakı şəhərində yaşayan hər cür şəraiti olan onlarla insan bizə müraciət edərək azad olunacaq torpaqlarda bizimlə bərabər quruculuq, abadlıq işləri aparıb daimi o torpaqlarda yaşamaq arzularını bildirirlər.

İrfan jurnalı: Bu gün Qarabağda doğulmayan, qacqın şəhərciklərində dünyaya göz açan, böyüyən yeni nəslin üzünü görmədiyi o torpaqlar haqqında anlayışı, təsəvvürü necədir? Gənc nəslin zehnində Qarabağ təsəvvürünü canlandıracaq nə kimi tədbirlər həyata keçirilir?

N. Bəhmənov: Bu gün bizim qarşımızda duran əsas vəzifələrdən biri də doğma el-obadan uzaqda, qaçqın şəhərciklərində dünyaya göz açan uşaqlara vətən sevgisini, heç vaxt görmədikləri torpaqlara məhəbbət hissini aşılamaqdan ibarətdir. Bunun üçün ilk növbədə ailədə valideynlərindən eşitdiklərini uşaqlara orta məktəblərimizdə xüsusi təşkil olunmuş proqramlar (keçirilən ədəbi-bədii gecələr, teatr tamaşaları, filmlər, rəsm sərgiləri, Qarabağa aid müxtəlif mövzularda inşa yazıları və s.) vasitəsilə daha təkmil formada çatdırılmasını təşkil etmişik. Qəlbi Vətən həsrətli, Şuşa nisgilli müəllimlər tez-tez onlara Vətən, doğma yurd-yuva xatirələrini danışdıqca övladlarımıza da görmədikləri el-obalarına, yurd-yuvalarına məhəbbət hissi aşılanır.

Mənim iş otağımın divarlarına başdanbaşa Şusanın tarixi memarlıq abidələrini əks etdirən şəkillər vurulmuşdur. Qəbuluma gələn hər kəs buranın Şuşanın bir guşəsi olduğunu görür. Bu özü də bir təbliğatdır. Biz gənclərimizin tərbiyəsi üçün bayaq qeyd etdiyim kimi əlimizdən gələni əsirgəmirik.

İrfan jurnalı: Bildiyimiz kimi bu gün Qarabağ probleminin sülh yolu ilə həlli

üzərində danışıqlar aparılır. Siz bu danışıqların nəticəsini necə görürsünüz?

N. Bəhmənov: Dünyada yaşayan bütün xalqların ermənilərə dözdüyü göz önündədir. Ermənilər demək olar ki, dünyanın bütün ölkələrində firavan şəraitdə yaşayırlar. Özləri isə digər xalqlara qarşı dözümsüzlük nümayiş etdirərək onları Ermənistandan kənarlaşdıraraq son dövrlər ərzində bu ölkədə gəlmə erməni etnosunun miqdarını 20%-dən 98%-ə çatdırıblar. Bu gün onlar həmin siyasəti öz himayədarlarının köməyi ilə Dağlıq Qarabagın ərazisində də həyata keçirirlər.

Azarbaycan artıq 90-cı illərin əvvəlindəki Azərbaycan deyildir. Bu gün bizim qarşıya qoyulmuş bütün məsələləri yerinə yetirməyə qadir ordumuz var. İldən-ilə iqtisadiyyatımız güclənir, orduya ayrılan vəsait artıq Ermənistanın dövlət büdcəsinə bərabərdir və Ermənistanın bundan acıq-aşkar tələşlandığı göz önündədir.

Azərbaycan tərəfi münaqişənin sülh yolu ilə həllinə ona görə tərəfdardır ki, qan tökülməsini istəmir. Məsələnin danışıqlar yolu ilə həllini tapmasnı istəyir, ancaq yaxın zamanlarda problem həllini tapmasa möhtərəm Prezidentimiz İlham Əliyevin bəyan etdiyi kimi məsələnin həlli üçün bütün vasitələrdən istifadə olunacaqdır. Əgər məsələ müharibə yolu ilə həll olunacaqsa, onda heç bir statusdan söhbət belə gedə bilməz və Qarabağda yaşayacaq ermənilərin sayı bu gün Ermənistan ərazisində yaşayan azərbaycanlıların sayına bərabər olacaqdır. Bunu erməni tərəfi dərk etməlidir.

İrfan jurnalı: «İrfan» jurnalı vasitəsilə oxuculara, yurdundan didərgin düşmüşlərə nə deyərdiniz?

N. Bəhmənov: Sizin jurnal vasitəsilə oxuculara, eləcə də yurd-yuvalarından didərgin



düşmüş insanlara çatdırmaq istəyərdim ki, geri qayıdacağımız günə lap az qalıb. Biz Qarabağımızın xilası naminə əqidə birliyi nümayiş etdirərək bu məsələni ən yaxın zamanlarda həll etmək qüdrətinə malik olan bir insana – Möhtərəm Prezidentimizə hər vasitə ilə yardımçı olmağa, hərə öz çalışdığı sahədə əlindən gələni etməyə borcludur.

Azərbaycanın tanınmış yazıçısı Ç.Abdullayevin bir fikri var: ***«Yer üzündə bütün müharibələr alçaqların namuslu insanlara qarşı qəsdidir.»*** Biz indi ozümüz də istəmədən bədnam qonşularımız və onların dünyadakı havadarları tərəfindən bu müharibəyə cəlb edilmişik və ondan üzüağ çıxmaq üçün gərəkli nə varsa hamısını etməliyik. Bu iş uğrunda hər bir azərbaycanlı dünyanın harasında yaşamasından asılı olmayaraq öz töhfəsini verməli, əlindən gələni əsirgəməməlidir.

Sonda mənə öz fikirlərimi bir daha bildirmək üçun şərait yaratdığınıza görə sizə minnətdarlığımı bildirirəm.

Köçkünlərin güzəranını yaxşılaşdırmaq üçün Azərbaycan dövləti bütün vasitələrdən istifadə edir. Ancaq bütün məcburi köçkünlər kimi şuşalılar da geriyə qayıdacaqları günü səbirsizliklə gözləyir və o günün yaxında olduğuna inanırlar.

Dr. Abbas QURBANOV • abbas.1977@hotmail.com

TƏMİZLƏMƏ SİYASƏTİ, YOXSA BÖYÜK XƏYALLAR?



Tarixə nəzər saldıqda görərik ki, soyqırım hadisələri millətlərin gələcəyində yaralı izlər buraxaraq, maddi-mənəvi dəyərlərində büdrəməyə və geriləməyə səbəb olmuşdur. Soyqırıma məruz qalan bir çox millətləri göstərə bilərik ki, bu hadisə onların genofonduna ciddi təsir göstərmiş və nəticədə nəslin azalmasına, yaxud tamamilə yox olmasına səbəb olmuşdur.

Soyqırım bir millətin və ya xalqın mövcudluğunu sual altında buraxan, istər müharibə, istərsə də sülh şəraitində körpələrin, qadınların və qocaların - bir sözlə, günahsız insanların kütləvi şəkildə qətlidir. Tarixi salnamələrdə belə hadisələrə sıx-sıx rast gəlmək mümkündür. Tarixə nəzər saldıqda görərik ki, soyqırım hadisələri millətlərin gələcəyində yaralı izlər buraxaraq, maddi-mənəvi dəyərlərində büdrəməyə və geriləməyə səbəb olmuşdur. Soyqırıma məruz qalan bir çox millətləri göstərə bilərik ki, bu hadisə onların genofonduna ciddi təsir göstərmiş və nəticədə nəslin azalmasına, yaxud tamamilə yox olmasına səbəb olmuşdur. Avropalıların Amerikanı kəşfi ilə başlayan barbarlıqları yerli xalqların kütləvi qətlləri ilə davam edərək, onların mövcudluğunu sual altında qoymuşdur. Soyqırıma məruz qalan hindular az bir müddət ərzində ciddi itkilərə məruz qalsalar da, varlıqlarını qoruyub dağlara, yamaclara sığınaraq həyatlarını davam etdirə bilmişlər.

Bu tarixi həqiqətləri Afrika və Uzaq Şərq ölkələrinin tarixi salnamələrində də müşahidə edə bilərik. Şərqi bəyənməyən və şərq millətlərini barbar kimi görən avropalılar Afrika xalqlarını misli görünməyən vəhşiliklərlə istismar edərək, onların maddi-mənəvi dəyərlərini mənimsəyib onlara qarşı mərhələli soyqırım törətmişlər. XIX əsrdə fransızların Əlcəzairdə törətdikləri kütləvi qətllər məhz soyqırım

mahiyyəti daşıyırdı. Belə soyqırım hadisələrini yaxın tarixdə də görmək mümkündür. Yəhudilərin iddia etikləri 6 milyon yəhudinin alman faşistləri tərəfindən qətli ilə əlaqədar soyqırım hadisəsi XX əsrin ən dəhşətli və amansız hadisəsi kimi tarixdə iz buraxmışdır.

XX əsr Azərbaycan tarixində qanlı səhifələrlə yaddaşlarda iz buraxmışdır. Hər zaman məkrli və düşmənçilik iddiaları ilə yaşayan, başqalarına aid milli-mənəvi dəyərlərə sahib çıxan, özününküləşdirən, qondarma soyqırımla dünyada özünü yazıq kimi göstərən mənfur ermənilər dəfələrlə Azərbaycana qarşı torpaq iddiası ilə çıxış etmiş, minlərlə insan qanı töküb torpaqlarımızı qəsb etmişlər. 1905-ci ildə törətdikləri kütləvi qətllər 1918-ci ildə geniş vüsət alaraq soyqırım səviyyəsinə qalxmışdır. Minlərlə körpənin, qadının və yaşlı insanların kütləvi qətli Lənkəranda, Ağdaşda, Göyçayda, Şamaxıda, Qubada və Bakıda qeydə alınmışdır.

Amma ermənilər bütün bu hadisələrin əksini söyləyərək 1915-ci ildə türklər tərəfindən soyqırıma məruz qaldıqlarından və bir milyon ermənininin qətlindən bəhs edirlər. Heç bir əsası, sübutu olmayan bu iddialarla erməni lobbisi bütün dünyada özlərini soyqırıma məruz qalmış, haqsızlığa düçar olmuş məzlum xalq kimi tanıtmağa nail olmuşdur. Türkiyə Respublikasının arxiv və tədqiqat mərkəzlərini ermənilərin və dünya xalqlarının üzünə açıq elan etməsi və onların iddia etdikləri qondarma soyqırım hadisəsinin həqiqətdə olub-olmamasının ortaya çıxması ilə bağlı dəfələrlə beynəlxalq aləmə müraciət etmələri, ermənilərin isə buna məhəl qoymayaraq, şər və yalan üzərində qurduqları əsassız iddiaları üçün açıq qapıları bağlaması, əslində, bu qondarma soyqırımın əsassız olduğunu ortaya çıxarır. Ancaq ermənilərin "böyük erməni dövləti" xülyası heç bir zaman onları bu çirkin istəklərindən uzaqlaşdırmamışdır. Onlar mərhələli şəkildə bir az da irəli gedərək Azərbaycana qarşı yeni strategiyalarını müəyyənləşdirib, yeni iddialarla Azərbaycan torpaqlarına soxulmuşlar. Hətta heç bir dövlətə və dövlətçilik ənənələrinə sahib olmadıqları halda, Azərbaycan torpaqlarını qəsb edərək öz dövlətlərini qura bilmişlər. Bununla kifayətlənməyən ermənilər yeni-yeni iddialarla beynəlxalq aləmə atılaraq haqlı olduğumuz halda, bizi haqsız vəziyyətə düşürürlər.

Digər bir fakt: Naxçıvan torpaqlarının onlarla heç bir əlaqəsi olmadığı halda, Moskvanın mərkəzində inşa etdirdikləri erməni kilsəsinə Naxçıvan adı verən emənilər bu torpaqlara da iddialı olduqlarını göstərirlər. İndi Yerevan adlandırdıqları Qərbi Azərbaycanın qədim şəhəri olan İrəvan bizim olduğu halda niyə dünya arenasında Qərbi Azərbaycan və İrəvan iddiası ilə çıxış etməyək? Niyə haqq səsimizi dünyaya çatdırmayaq? Bu, bizim haqqımız deyilmi? Nə üçün həmişə biz haqlı olduğumuz halda hücumda deyil, müdafiə mövqeyində hərəkət etməliyik? Son illər Azərbaycanın haqq səsinin dünyanın nüfuzlu tiribunalarından eşidilməsi, artıq müdafiə mövqeyi deyil, hücum mövqeyindən çıxış etməsi bu istiqamətdə atılmış dövlət siyasətinin uğuru hesab edilə bilər.

İndi Yerevan adlandırdıqları Qərbi Azərbaycanın qədim şəhəri olan İrəvan bizim olduğu halda niyə dünya arenasında Qərbi Azərbaycan və İrəvan iddiası ilə çıxış etməyək? Niyə haqq səsimizi dünyaya çatdırmayaq? Bu, bizim haqqımız deyilmi? Nə üçün həmişə biz haqlı olduğumuz halda hücumda deyil, müdafiə mövqeyində hərəkət etməliyik?

Dr. Elsevər SƏMƏDOV

QUBA SOYQIRIMI

Tarixi həqiqətlər və faktlar

Tarix boyu Azərbaycan xalqı mənfur ermənilərin bir çox hücumlarına və soyqırımlarına məruz qalmışdır. Bütün bunları sübut etmək üçün bizim əlimizdə yetərincə əsaslı fakt və dəlillər mövcuddur. Xocalı faciəsi onların törətdikləri cinayətlərin ən sonuncusudur. Bu faciədən əvvəl baş vermiş, lakin Azərbaycan ictimaiyyətinə yeni məlum olan Quba soyqırımı haqq səsimizi dünyaya çatdırmaq üçün başqa bir həqiqətdir. 1918-ci ildə törədilmiş bu soyqırım hadisəsinə aydınlıq gətirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri namizədi Qəhrəman Ağayevlə görüşdük.

İnstitutun hadisə yerinə ezam etdiyi iki əməkdaşı Qəhrəman Ağayev və Əsgər Əliyevin apardıqları qazıntı işləri və tədqiqatlar nəticəsində bu hadisənin məhz erməni daşnaqları tərəfindən törədilən soyqırım hadisəsi olduğu müəyyən edilmişdir. Müsahibimiz Qəhrəman Ağayev 2007-ci il aprelin 1-də təsadüfən Quba şəhərinin Qudyal çayının sağ sahilində torpaq işləri görülərkən insan skeleti tapıldığını söylədi. İnsan skeletləri ilk dəfə quyuların ətrafında tapılmışdır. Aprelin 6-7-də bu barədə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutuna xəbər verilmişdir. Aprelin 8-12-si tarixlərində ilkin mərhələdə aparılan qazıntı tədqiqat işləri nəticəsində törədilmiş cinayət aşkarlanmışdır.

İlkin tədqiqatın nəticələri adı keçən institutun elmi şurasında müzakirə edilmiş və həmin ərazidə geniş qazıntı-tədqiqat işlərinin aparılmasının vacib olduğu qərara alınmışdır. İyulun 13-dən dekabrın sonuna

qədər həmin ərazidə arxeoloji tədqiqat işləri aparılmışdır. Qış mövsümünün başlaması ilə əlqədar qazıntı tədqiqat işləri dekabrın 29-dan etibarən müvəqqəti olaraq dayandırılmışdır.

Məlumat üçün qeyd edək ki, qazıntının ümumi sahəsi 500 kvm təşkil edir. Əraziyə 7 nəfərdən ibarət heyət göndərilmişdir. Heyətin tərkibi antropoloq, etnoqraf, numizmat və arxeoloqlardan ibarət olmuşdur.

Arxeoloji qazıntılardan, tarixi araşdırmalardan, arxiv materiallarından və yerli əhali ilə aparılan söhbətlərdən məlum olmuşdur ki, bu soyqırım ermənilər tərəfindən törədilmişdir.

Arxeoloji qazıntı və tədqiqat işiləri aparılan müddət ərzində kütləvi məzarlıqda 161 insan kəlləsi tapılmış və onların müxtəlif üsullarla öldürüldüyü ortaya çıxmışdır. Kütləvi məzarlıq iki quyu şəklində aşkar edilmişdir. Birinci quyunun dərinliyi 4 m 7 sm, diametri isə 5m, ikinci quyunun dərinliyi 20 m, diametri isə 2,5 m-dir. Quyular qətliam qurbanlarının özlərinə öldürülmədən əvvəl qazdırılmışdır.

Məlum olub ki, bu insanlar odlu silahlarla deyil, ağrı vermək üçün küt alətlərlə öldürülmüşlər. Tapılan insan kəllələri 8-13 yaşlı uşaqlara, qadınlara və əsasən, yaşlı kişilərə aiddir. Öldürülmə üsuluna gəlincə isə insan vəhşiliyinin ən dözülməz səviyyəsini nümayiş etdirən ermənilər mismarla insanların gicgah və beyin nahiyələrinə vurmaqla, burun-qulaq, qol-ayaq nahiyələrini və başlarını kəsməklə və s. metodlara əl atmışlar.

Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi Qəhrəman Ağayev əsas məqsədin məzarlığı tamamilə açmaq və quyularda təmizləmə işləri aparmaqdan ibarət olduğunu bildirdi. Quyuların üstündən axan arxlar boyu tapılan insan skeletlərinin labirint formasında şüşələrin içərisinə yerləşdiriləcəyini və burada açıq muzeyin fəaliyyət göstərəcəyini söylədi.

İnstitutun əməkdaşı bu ərazinin tamamilə tədqiqi və muzey kimi fəaliyyət göstərməsi üçün aidiyyatı təşkilatların köməyinin vacib olduğunu bildirdi. Bu faktların mənfur ermənilərin türkdilli xalqlara qarşı törətdiyi cinayətlərin gələcək nəsillərə və beynəlxalq ictimaiyyətə göstərilməsi üçün əyani vəsait olduğunu söylədi.

İnstitutun əməkdaşı ilə aparılan söhbətdən yola çıxaraq deyə bilərik ki, bu hadisə beynəlxalq aləmin diqqətinə mütləq çatdırılmalıdır. İnternet və kütləvi informasiya vasitələrindən istifadə edərək bu acı həqiqətləri olduğu kimi işıqlandırmaq bizim hər birimizin vətən qarşısındakı müqəddəs borcumuzdur.

Məhz bütün bunları həyata keçirmək Azərbaycan dövlətinin maraqları daxilindədir. 1918-ci ildə törədilmiş Quba soyqırımının daha dəqiq və geniş miqyasda araşdırılması və bu hadisənin təbliği məsələsinin beynəlxalq aləmə çıxarılması dövlətin diqqətindən kənarda qalmamışdır. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi məsələsi Azərbaycan Respublikasının Prezidentinin 5 fevral 2008-ci il sərəncamı ilə öz həllini tapmışdır. Bu sərəncam Quba soyqırımının araşdırılması və beynəlxalq aləmdə tanınmasına xidmət edir.

İnstitutun əməkdaşı bu ərazinin tamamilə tədqiqi və muzey kimi fəaliyyət göstərməsi üçün aidiyyatı təşkilatların köməyinin vacib olduğunu bildirdi. Bu faktların mənfur ermənilərin türkdilli xalqlara qarşı törətdiyi cinayətlərin gələcək nəsillərə və beynəlxalq ictimaiyyətə göstərilməsi üçün əyani vəsait olduğunu söylədi.

KƏLBƏCƏRƏ QONAQ GƏLƏCƏYƏM...

Rövşən QƏNİYEV



Əziz dostum, ümid öldüyündə yaşamağın da mənası qalmır, məhz buna görə bir çoxlarımız ümidimizi itirməmişik. Ona görə ümidvarıq ki, biz xalq olaraq, dövlət olaraq Qarabağı və Azərbaycanın ərazi bütövlüyünü heç vaxt danışıqlarda müzakirə obyetki etməyəcəyik. Müvəqqəti işğalda olsa da Qarabağ bizimdir, Kəlbəcər bizimdir. Onun azadlığı uğurda gözünü qırpmadan öləcək oğullarımız çoxdur.

Ümumiyyətlə, həm BMT Baş Məclisində «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət» qətnaməsinin qəbul olunması ilə bağlı, həm də Qarabağ münaqişəsinin sülh yolu ilə həllini tənzimləyən ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti və neft uğrunda Azərbaycan üçün yaradılmış "Qarabağ düyünü"nün açılmasında ikili standartların yeridilməsi haqqında analitik bir məqalə yazmaq fikrindəydim. BMT kimi mötəbər təşkilatın münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamənin indiyədək niyə yerinə yetirilmədiyi, münaqişənin sülh yolu ilə tənzimlənməsində beynəlxalq ictimaiyyətin niyə görə passiv tamaşaçı mövqeyi tutması, konfliktin həlli üçün desturuktiv mövqeyinə görə işğalçı Ermənistana beynəlxalq təzyiq imkanlarından niyə istifadə olunmadığı, Azərbaycan tərəfinin işğaldakı torpaqlarını azad etmək üçün lazım gələrsə müharibə yolundan istifadə edəcəyini bəyan etməsinin işğalçı ermənilərlə yanaşı daha kimləri və niyə narahat etdiyini və s. kimi mövzuları ələ almaq istəyirdim.

Tələbəlik illərindən tanıdığım və erməni təcavüzü nəticəsində cismən tərk etdiyi, lakin özü demişkən hər gecə yuxularında ev-ev, məhəllə-məhəllə gəzdiyi, səfalı təbiətində ləzzətini duyduğu, sıldırım qayalıqlarına, quşqonmaz zirvələrinə dırmandığı füsunkar Kəlbəcərdən məcburi köçkün düşmüş dostumla təsadüfi bir söhbət, məni bu fikirdən yayındırdı. Guya yazsam nə dəyişəcək? BMT-dən, ATƏT-dən, Rusiyadan, ABŞ-dan, Fransadan, Qərbdən, ikili standartlardan, ədalətsiz dünya ictimaiyyətindən gileylənirik, nə dəyişir?! Onsuz da ATƏT-in

O, danışır... Gözündə o yerləri təkrar görə bilmək nisgili, uşaqlıq hafizəsinə həkk olmuş evlərini yenidən görmək kədəri ümidə qarışır... Gözləri işıldayır. Kövrəlmiş halda: "Hər şeydən imtina edərəm, yetər ki, Kəlbəcərdə viran olmuş evimizi öz əlimlə qurum, atamın məzarı başında dualar oxuyum."-deyir və baxışlarını bir nöqtəyə zilləyir.

Azərbaycana nə normal Təhlükəsizlik, nə də normal Əməkdaşlıq effekti var. BMT verdiyi çeklərin zibil yeşiyinə tullanmasına sakitcə baxan soyuqqanlı satıcıya bənzəyir.

Bir gün dostumu zəmanənin ecazkar ixtirası olan internetdə Google Earth proqramı vasitəsilə Kəlbəcərin peykdən çəkilmiş görüntülərinə baxarkən gördüm. Çox yaxın keçmişə aid olan "Kəlbəcərdə" mənə boya-başa çatdığı evin, təhsil aldığı məktəbin, qohum-qonşunun evlərinin, ermitirajdan sonra sovet dövründə eksponatlarına görə dünyanın ən zəngin ikinci müzeyinin xarabalıqlarını, rəhmətlik atasının uyuduğu qəbiristanlığı, Kəlbəcərin qızıl mədənlərinin yerini və işğaldan sonra burada ermənilərin yerləşdirdiyi hərbi bazaların, silah-sursat anbarlarının yerini göstərdi.

Dünya gözüylə Kəlbəcəri görməsəm də bilirəm ki, yer üzünün cənnətidir. Həmsöhbətim yer üzünün bu cənnətindən elə iştahla, eyni zamanda ürək ağrısı və həsrətlə danışırdı ki, elə bildim Kəlbəcərdə gəzirəm. Düzdür, dostumun ixtisası pedaqoq olduğuna görə təsvirli və obrazlı nitqi güclüdür. Lakin məni şok vəziyyətinə salan onun təsvir qabiliyyəti yox, gənc yaşda daşıdığı nisgil, doğma el-oba həsrəti, yurd yanğısı idi. Birdən özümü onun yerinə qoydum və dəhşətə gəldim. Düşünün, adamın el-obası pərən-pərəndir, yurdsuz yaşayır.

O, danışır... Gözündə o yerləri təkrar görə bilmək nisgili, uşaqlıq hafizəsinə həkk olmuş evlərini yenidən görmək kədəri ümidə qarışır... Gözləri işıldayır. Kövrəlmiş halda: ***"Hər şeydən imtina edərəm, yetər ki, Kəlbəcərdə viran olmuş evimizi öz əlimlə qurum, atamın məzarı başında dualar oxuyum."***-deyir və baxışlarını bir nöqtəyə zilləyir. Bu baxışlarda Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların və ictimaiyyətin biganəliyinə bənzər bir ümidsizlik sezilsə də, Azərbaycan prezidentinin işğal olunmuş ərazilərimizin geri qaytarılmasına qətiyyətinə, bu qətiyyətin əsasında duran regionda iqtisadi inkişafına görə lider olan Azərbaycanın qüdrətinə və nəhayət onun kimi bütün məcburi köçkünlərimizin öz atababa yurdlarına qayıtmaq istəyinə bənzər bir ümid var.

Əziz dostum, ümid öldüyündə yaşamağın da mənası qalmır, məhz buna görə bir çoxlarımız ümidimizi itirməmişik. Ona görə ümidvarıq ki, biz xalq olaraq, dövlət olaraq Qarabağı və Azərbaycanın ərazi bütövlüyünü heç vaxt danışıqlarda müzakirə obyetki etməyəcəyik. Müvəqqəti işğalda olsa da Qarabağ bizimdir, Kəlbəcər bizimdir. Onun azadlığı uğurda gözünü qırpmadan öləcək oğullarımız çoxdur. Ona görə ümidvarıq ki, şəxsiyyətində Kələbəcər kişisinin məğrurluğunu, şeiriyyatında Kəlbəcər insanının mənəviyyatını yaşadan, ***"Yurd itirən bay olmaz"-deyərək Kəlbəcər itkisini qəbul etməyən, "O Kəlbəcər qayıtmaz-Qayıtsa yüz Kəlbəcər" nalə***sila ***əvvəlki Kəlbəcər üçün burnunun ucu göynəyən Məmməd Aslanın, Dədə Şəmşirin vətənində hələ çox yubileylərini keçirəcəyik.***

Bəli, əziz dostum, sizin tərəflərin insanı Azərbaycan xalqına məxsus qonaqpərvərliyilə seçilir. Bunu ən azı sənin timsalında deyə bilərəm. İnanıram ki, yaxın gələcəkdə mən sizin Kəlbəcərdəki evinizə qonaq gələcəyəm. Mən inanıram, sən də inan...

Ali ÇINAR • muallimali@hotmail.com

HƏCC TƏƏSSÜRATLARI – V

Tələşlə "Babus-Səlam"a yönəlirik. Həmd olsun, hələ ki, qapılar açıq. Mərhum Nabinin: "Sakın tərki ədəbdən, kuyi-məhbubi-Hüdadır bu!" sözünü yad edib ədəblə giririk içəri. Rövzənin içində səssizcə, sanki Rəsulullahın hüzuruna çıxacağıq və bizə "Xoş gəldiniz" deyəcəkmiş kimi həyəcanla yürüyürük.

Bayram səhəri Məkkeyi-Mükərrəmədəyik. Uzun, amma hüzurlu yürüşün verdiyi yorğunluqla otel otaqlarında çarpayıya atırıq özümüzü. Ziyarət təvafı etmək üçün günortanı gözləyirik. Təvafın ardından Səfa ilə Mərvə arasında səy edəcəyimiz üçün istirahət etməliyik.

Bir az dinləndikdən sonra təraş olub, ehramdan çıxırıq. ***"Qurban kəsib Allah üçün bir baş verənlərin bədənlərindən simvolik olaraq bir parça saç kəsməsi, bu fədakarlığı gərəksə canlarıyla edə biləcəkləri mənasına gəlir."*** –deyə söyləmişdir bir müəllif.

Gündəlik geydiyimiz paltarları geyinib yenidən dünyaya qayıtdıq. Sanki bizə bir şans daha tanındı. Amma gerçəkdən öldüyümüz zaman, kəfənə sarıldığımız zaman belə olmayacaq. Geri dönülməz bir yolçuluq yaşayacağıq.

Günorta namazı üçün Məscidi-Hərama gəlirik. Həcdən əvvəlki günlərə nəzərən bir az tənha. Amma təvaf etmək üçün Kəbəyə yaxınlaşmaq yenə imkansız.

Daha rahat olsun deyə üçüncü mərtəbəyə çıxıb, ziyarət təvafını orada tamamlayırıq. Ardınca həccin vaciblərindən olan səyimizi yerinə yetiririk. Bununla da həcci tamamlamış olduq. Rəbbimizdən niyazımız odur ki, həccimiz məbrur olsun, məqbul olsun. Təzim və təslimiyyətimizi Ona ərz edirik.

Bayram günləri boyunca şeytan daşlamağa gedirik.Yollar izdihamlı, amma daşlama məkanları olduqca rahat. Kaş, bu məlunu həyatda da rahat daşlaya bilsək!

Məkkeyi-Mükərrəmədən ayrılıq vaxtı yaxınlaşdıqca bir hüzn çökür üstümüzə. Hüznlü bir vida olacaq. Vida təvafı edəcəyik. Hər birimiz ***"Əcəba, bir daha qismət olacaqmı?"*** deyərək göz yaşları ilə Beytullahın ətrafında kəpənəklər kimi, mələklər kimi dövr edirik… Ayrılıq həqiqətən çox ağır.

Yol hicrət yolu. Gedəcəyimiz yer Mədineyi-Münəvvərə, nurlu Peyğəmbərin şəhəri. Həzrət Peyğəmbərin Mədinəyə hicrət edərkən getdiyi yollar indi çox rahatdır və hicrət yolu adlanır.

Yol boyu salavati-şəriflər gətiririk.

Rəsulullah (s.ə.s)-in bu yolu aşarkən yaşadıqlarını xatırlayırıq. Hz. Əlinin canı bahasına onun yatağına yatmasını, hz. Əbu Bəkrin səfər yoldaşlığı ilə qazandığı ***"ikinin ikincisi"*** olmaq şərəfini, Sevr mağarasının ağzına yuva quran göyərçinləri, hörümçəyi, onları görməyənlərin bədbəxtliyini, arx-

alarından yetişib gələn Surakanın gördüyü möcüzə qarşısında aman istəməsini, xüsusilə də Qubaya çatdıqdan sonra yaşananları, böyüklü-kiçikli yollara tökülən müsəlmanların ***"Taləal bədru"*** səslərini… Mədineyi-Münəvvərəyə bu duyğularla giririk.

"Qübbeyi-Xadra-Yaşıl Qübbə" göründü. Rəsulullahın məscidi şəhərin mərkəzindədir. Həm mənəvi, həm də maddi mənada həyat onun ətrafında dönür. Belə olması da çox təbiidir. Çünki o, aləmlərə rəhmət olaraq göndərildi.

Məscidi-Nəbiyə getmədən əvvəl otelimizə yerləşirik. Gecə yarısı olmasına baxmayaraq sabaha qədər səbr edə bilməyəcəyimizi düşündüyümüz üçün qüsl alıb hüzura çıxmağa qərar veririk. Tələaşla ***"Babus-Səlam"a*** yönəlirik. Həmd olsun, hələ ki, qapılar açıq. Mərhum Nabinin: ***"Sakın tərki ədəbdən, kuyi-məhbubi-Hüdadır bu!"*** sözünü yad edib ədəblə giririk içəri. Rövzənin içində səssizcə, sanki Rəsulullahın hüzuruna çıxacağıq və bizə ***"Xoş gəldiniz"*** deyəcəkmiş kimi həyəcanla yürüyürük. Qəbri-şərifinin önündəyik. Barmaqlıqların ardından yaşıl pərdələr görünür. Rəsulullah və iki dostu hz. Əbu Bəkr, və hz. Ömər burada uyuyurlar. Qeyri-ixtiyari gözlərdən yaşlar tökülür, çox xəfif səslə ***"Gəldik, ya Rəsulallah! Sizə arxamızda boy$nubükük qoyub gəldiyimiz qardaşlarımızın salamını gətirdik."*** deyə bilirik. Görmədiyimiz rəhmət yağmurları ilə islanırıq.

Qaldığımız müddətdə hər bir vaxt namazını burada qılmağa çalışırıq. Gündüzlər İslam tarixinin mühüm yerlərini ziyarət edirik. İlk əvvəl Uhuda gedirik. ***"Seyyidüş-Şühəda"*** hz. Həmzəni və mübarək Uhud şəhidlərini ziyarət edirik. Hz.Peyğəmbər xüsusilə ömrünün sonlarında buraya tez-tez gələrmiş. Sonra Məscidi-Qibləteyn və Quba məscidini ziyarət edirik. Quba məscidi ***"təmælləri təqva ilə atılan məscid"*** olaraq tərif edilir Qurani-Kərimdə.

Mədinədə bir hüzur var. Qaldığımız üç gün ərzində bunu yaşayırıq. Burada ***"Aləmlərin Əfəndisi"*** var. Yəsribi Mədineyi-Münəvvərə edən də bu, yer üzünü şərəfli qılan da bu: yer üzü göyə qarşı fəxr edərmiş, məndə Məhəmməd əleyhissalam var deyə. Səllallahu əleyhi və səllləm. Mədinədən ayrılmaq hamımıza daha ağır olur. Yenidən gəlmək arzusu dolub-daşır içimizdə. Hava limanına gedən avtobuslara ancaq bədənlərimizi mindirə bilirik. Amma həcci bərabər yaşadığımız can dostumuzun deyişi ilə: ***"Yaxşı ki, gəlmişik. Nə yaxşı ki, gəldik!"*** Allaha sonsuz həmd olsun!

Rəsulullah (s.ə.s)-in bu yolu aşarkən yaşadıqlarını xatırlayırıq. Hz. Əlinin canı bahasına onun yatağına yatmasını, hz. Əbu Bəkrin səfər yoldaşlığı ilə qazandığı "ikinin ikincisi" olmaq şərəfini, Sevr mağarasının ağzına yuva quran göyərçinləri, hörümçəyi, onları görməyənlərin bədbəxtliyini, arxalarından yetişib gələn Surakanın gördüyü mözüzə qarşısında aman istəməsini, xüsusilə də Qubaya çatdıqdan sonra yaşananları, böyüklü-kiçikli yollara tökülən müsəlmanların ""Taləal bədru" səslərini…

Prof.Dr.Şahin XƏLİLLİ

Bayronun türk sevgisi və intiqamı

Şərq ölkərində romantik bir şair kimi gördüyü, şahidi olduğu hadisələr həmin illərdə onun yazıya aldığı şeir və poemalarına müəyyən təsir göstərmişdir. Xüsusilə şairin müsəlman adət-ənənələrinə, ata-övlad münasibətlərinə, qadın ləyaqətinə dair bilgiləri Şərq poemalarında poetik fikir və obrazların yaradılmasında xüsusi rol oynamışdır.

Qəlbimdə vardı Bayronu bədbəxt edən məlal
Gəzdim o yastı dağları, xülyam içində lal...

Bu məşhur beyt görkəmli türk şairi Yahya Kamal Bayatlının (1884-1958) söz mülkündən gələn bir xatırlamadır. İngilis ədəbiyyatı tarixində inqilabi romantizm dövrünün şairi Corc Qordon Bayronun (1788-1824) qəlblərdə yaratdığı və onu bədnam edən məlalı bu sətirlərin müəllifini də düşündürməyə və öz düşüncələrini yazmağa sövq etdi.

Əvvəla, Bayronun Türk dünyasına, tarixinə və mədəniyyətinə olan hədsiz marağı otuz altı illik ömrünün çox erkən çağında başlamışdır. ***"Türkiyə tarixi hələ uşaqlıqdan mənə ləzzət verən ilk kitablardan biri olmuşdur"*** (C.Q.Bayron). Həqiqətdə onun hələ 10 yaşı tamam olmamışdan əvvəl Yaxın Şərq ölkələrinə, o cümlədən Türkiyəyə dair çox-çox səyahət və tarixi kitabları diqqətlə öyrənməsi gələcək həyatına və səyahətinə bir cığır açmışdır. Və beləliklə Bayron bir sıra Yaxın Şərq ölkələrinə, o cümlədən Türkiyəyə səfərə çıxmışdı. ***"Mən... xristian saraylarından çox Məhəmməd (Müsəlman) saraylarında olmuşam"*** yazan Bayron Türkiyədə keçirdiyi həyatına dair ***"bir neçə ən parlaq və ən tutqun, amma həmişə ən canlı xatirələri"*** olduğunu etiraf etmişdir.

Bayronun Xristianlığın çəkdiyi xərclərlə müqayisədə İslam dininin fəaliyyətinə önəm verməsi təsadüfi deyildir. İngilis alimi Filip Mansel 2003-cü ilin mart ayında lordlar Palatasının Bayron cəmiyyətində söylədiyi ***"Bayron və Osmanlı imperiyası"*** adlı məruzəsində də bu məsələyə toxunmuşdur. Alim, şairin

gündəliyindən aşağıdakı mühakiməsini nümunə gətirmişdir:

"Siz artıq müşahidə etməlisiniz ki, rəhmli və qonaqpərvər olmaq Məhəmmədin (Peyğəmbərin) məsləhət bildiyi ilk vəzifədir. Və həqiqəti desək, bütün mömin bəndələr qeydsiz-şərtsiz buna əməl edirlər."

Yaxud yenə Bayronun yazdığı aşağıdakı mühakiməyə diqqət yetirək:

"Sakit axşam çağı eşidilən müəzzinin gözəl səsi bütün xristian dünyasında çalınan kilsə zənglərindən daha təsirli olur."

İngiltərədən ayrılıb Şərq ölkələrinə yola düşməyə hazırlaşan Bayron müasiri Hanson adlı bir nəfərə yazdığı məktubunda qeyd edirdi: ***"... mənə lənətə gəlmiş bu ölkədən (İngiltərədən-Ş.X.) çıxıb getməyə izin verin. Mən sizə söz verirəm ki, müsəlmanlığı qəbul edərəm, amma geri qayıtmaram."***

Şərq ölkərində romantik bir şair kimi gördüyü, şahidi olduğu hadisələr həmin illərdə onun yazıya aldığı şeir və poemalarına müəyyən təsir göstərmişdir. Xüsusilə şairin müsəlman adət-ənənələrinə, ata-övlad münasibətlərinə, qadın ləyaqətinə dair bilgiləri Şərq poemalarında poetik fikir və obrazların yaradılmasında xüsusi rol oynamışdır.

Bayronun "Abidos gəlini (Türk hekayəti)" adı ilə təqdim olunmuş məşhur poemasından aşağıdakı təsvirə diqqət yetirək:

Peyğəmbərin üzünün nuru kimi qoy sənin
Üzündə cilvələnsin şəfəqlər dərin-dərin.
Yorğun zəvvarlar üçün o Məkkədən yüksələn
Müəzzinin azanı xeyir-duadır həmən.

(Tərcümə xalq şairi Bəxtiyar Vahabzadənindir).

Yaxud yenə həmin poemada:

And içirəm, Züleyxa, Peyğəmbərin qəbrinə
Qoy mənim bu niyyətim dərdinə məlhəm olsun.
Qılıncıma yazılmış
Qadir Quran ayəsi qoy mənə həmdəm olsun.

- yazan Bayronun ilhamla qələmə aldığı, təsvir etdiyi hadisələrin hər birində onun türk aləmi, türk ruhani dünyası ilə yaxından tanışlığı hiss olunur.

"Korinfin mühasirəsi" poemasında xristianlığı rədd edib müsəlmanlığı qəbul etmiş Alp obrazının mənəvi dünyasında baş verən sarsıntılar şairin öz arzu və ideyaları ilə səsləşir. Aşağıdakı misralar fikrimizin əyani sübutu ola bilər. Bayron yazırdı:

Keçmişdə xaçpərəst olmağı Alpın
Onların qəlbini salır dəhşətə.
Nə üçün yetərmiş bir gənc nazarın
Müsəlman adıyla şana-şöhrətə.
Onlar nə bilsinlər, söyləyin bunu,
Bir eşqin axırı çıxınca boşa.
İnsan itirərmiş öz qürurunu;
Qəzəb döndərərmiş ət qəlbi daşa,
Onlar nə bilsinlər gələndə məqam.
Hətta vətənini atan bir adam
Sonsuz ehtirasla, dərin qəzəblə
Coşub çağırarmış:"Qisas! İntiqam!"

(Tərcümə mərhum şairimiz Aslan Aslanovundur)

Əslində Bayronun Alp obrazı elə onun şair mənini, varlığını təmsil edir. Sonralar o, Türk dünyasına qarşı çıxaraq ürəyində gəzdirdiyi türk sevgisini qisas və intiqama təslim etmişdir.

Bütövlükdə isə Corc Qordon Bayronun həyatında və yaradıcılığında Türk tarixinə, həyatına, mübarizəsinə və mədəniyyətinə olan hədsiz məhəbbətinin nə olduğunu təfəkkür edib tez qərar verməyin aldadıcı olduğuna inandım. Elə düçündüm ki, sevimli şairimiz Yahya Kamalın "Bayronu bədbəxt edən məlal"ın nə demək olduğunu anlamaq və anlatmaq üçün hər kəs Türk tarixini yaxşı bilməlidir. Və XIX yüzilliyin əvvəllərində baş verən ictimai-siyasi hadisələrin Türk dünyası üçün nə qədər məşəqqət, ağrı-acılar gətirdiyini öyrənməyə, düçünməyə dəyər.

Dr. Rafiz Manafov • rafiz_manafov@hotmail.com

Dünyalı...

Müqəddəs kitabımız olan Qurani-Kərimin bir çox ayəsində insanların varlıq qarşısındakı mövqeyi ələ alınmış və insanın özü də daxil olmaqla Allah, kainat, axirət və sairə haqqında bilgi sahibi olması istənmişdir. Bu bilginin əldə oluna bilməsi üçün Qurani-Kərim insanı yer üzünü gəzməyə, qarış-qarış dolaşmağa və araşdırmağa səsləyir. Hətta elm yolunda ölənlərin şəhid savabı alacaqları bəyan buyurulmuş, alimlər peyğəmbərlərin varisləri elan etmişdir. İslam alimlərinin hədis öyrənmək üçün çıxdıqları "rihlə" adlı yolçuluqların səbəbi də budur hər halda.

Allah təalanın müqəddəs sifətlərindən birinin ***"Sani"*** olması bizə bəzi həqiqətləri bildirir. Sani - hərfi məna etibarilə ***"qoruyucu", "qurucu", "yaradıcı"*** mənalarına gəlir. Saninin əsəri isə onun yaratmış olduğu kainatdır(sənət). Allah təala bəşər oğluna bu sənət əsərini vərəq-vərəq oxumağı, ondakı məna və hikmətləri dərk etməyi əmr etmiş, ***"insanlıq vəzifəsi"*** olaraq qarşısına qoymuşdur. Çünki ***"Sani"***nin bilinməsi sənətinin bilinməsilə birbaşa əlaqəlidir. Sənət (kainat) nə qədər dərindən kəşf olunarsa, Sani də o qədər yaxından və haqqıyla tanınmış olacaqdır. Bu mənada bəşər idrakının ən zirvə nöqtəsi və ən böyük uğuru Yaradanı bilmək olmuşdur. Allahdan həqiqi mənada ən çox

İrtica, bilgisizlik, cəhalət Qurani-Kərimə görə inanmamaqdır və dinsizlikdir. Bu dünyadakı bütün hərəkətləri lüzumsuz və mənasız qəbul etmək, hər cür işi; inamı və küfrü, xeyri və şəri, yaxşılıq və pisliyi, comərdlik və xəsisliyi bərabər görmək deməkdir. Çünki hər hansı bir şeyi dəyərli edən, ona anlam qazandıran onun özü deyildir.

çəkinənlərin alimlər olduğunu bəyan edən Quran ayəsi də hər halda bu mənaya işarə etmişdir.

Qurani-Kərim insan idrakını müxtəlif sözlərlə ifadə edir. "Düşünmək" mənasında ***"təfəkkur", "təəqqül", "təəmmül", "təzəkkür", "tədəbbür"*** kimi sözlərin işlədilməsi, müqəddəs kitabımızın insan idrakıyla nə qədər dərindən bağlı olduğunu görməyə kömək etmişdir. ***"Görənlərlə görməyənləri (Bilənlərlə bilməyənləri) əsla bir tutmayan"*** müqəddəs kitabımız, özündən sonra gələn elmi tərəqqilərə və inkişaflara təməl təşkil etmiş, qaranlıq nəsillər üçün əvəzolunmaz nura çevrilmişdir. Qurani-Kərimin bir adının da ***"ən-Nur"*** olması əqli-səlim olanlar üçün düşündürücü olmalıdır.

Yuxarıdakı misallarda sadəcə bir neçə cümləylə ifadə edə bilmə iqtidarında olduğumuz bu sonsuz həqiqətlər toplusu bizə heç şübhəsiz söyləməyə əsas verir ki, Qurani-Kərimə görə, Allaha inanmaq, onun qurduğu düzəni kəşf etmək tamamilə əqli (rasional), bu həqiqətləri görə bilməmək isə elmsizlik və dolayısıyla irrasionalizmdir. Çünki var olan həqiqəti görməmək, görməkdən daha çətindir.

İrtica, bilgisizlik, cəhalət Qurani-Kərimə görə inan(a)mamaqdır və dinsizlikdir. Bu dünyadakı bütün hərəkətləri lüzumsuz və mənasız qəbul etmək, hər cür işi; inamı və küfrü, xeyri və şəri, yaxşılıq və pisliyi, comərdlik və xəsisliyi bərabər görmək deməkdir. Çünki hər hansı bir şeyi dəyərli edən, ona anlam qazandıran onun özü deyildir. Əksinə, ilahi bir duyğunun bunları mənalandırması, dəyər biçməsi və qiymətləndirməsidir. Bütün varlıq aləmini Yaradanı hesaba qatmadan düşünmək, aləmin fitrətsiz, ruhsuz, şüursuz, idraksız, məntiqsiz, hesab və hədəfsiz olduğunu iddia etməkdir ki, bu da ən az ***"intellektual intihar"*** sayıla bilər. Ancaq Haydegerin ***"təbiət çöllüyünə atılmış insanı", Kamusun "təbiət içərisində boğulan bir insanı", yaxud da Sartrın "məchul bir qaranlıq içərisindəki insanı"*** bu anlam dünyasından çox uzaqda qalmaqdadır. Bu, sadəcə və sadəcə əvəzsiz şair, dərin filosof, zahidanə sufi İqbalın "***bütün kainatdan məsul"*** tutduğu müsəlmanvari zehniyyətin anlaya biləcəyi həqiqətdir.

Elə isə, elm sahibi olmaq, alim və arif olmaq iman imtahanından keçməkdir. Dolayısıyla, məşhur olan qənaətin əksinə, kainatın dini izahı daha çox elmi və əqli bir izahdır. Çünki mömin üçün bütün varlığın mənalı bir izahı, məqsədi və qayəsi mövcuddur. O, hər şeydə yaradıcısının hikmətlərini kəşf edir. O, var olan hər şeyi ağıl və məntiq çərçivəsində açıqlama iqtidarındadır. Onun üçün aləmdə bütün ünsürlərin nizami birliyi mövcuddur. İstər ən saf metafizki ünsürlər olsun, istərsə də ən aşağı torpaq ünsürü olsun tək ruhdan qida almaqdadır. Tək hərəkət, tək ağıl, tək hədəf hamısına hakimdir. Məhz bu mənada mömin, Allah təalanın yer üzərindəki xəlifəsi olaraq bütün dünyanı tanımaqda, onunla əvvəlcədən təqdir olunmuş bir ünsiyyət içərisindədir. O, yer üzündə qərib deyildir. Çünki nə üçün gəldiyini, harada olduğunu və haraya gedəcəyini tutarlı bir şəkildə izah edə bilməkdədir.. Qısacası o, dünya sakinidir. O, dünyalıdır...

Məmməd Məmmədzadə

Həyatdan doymayan...

Həyat nədir? Sual verdim özümə
Mənasını çiçəklərdən öyrəndim.
Yaşadıqca çarpışmayı, sevməyi,
Qəlbimdəki diləklərdən öyrəndim.

Müşfiq haqda yazmaq istəyirəm. Azərbaycan şeirinin açılmadan solan "Yarı qönçə, yarı gül", tər bənövşə Müşfiqindən. Yazmaq istəyirəm. Amma qorxuram. Müşfiq poeziyasındakı emosionallığı, ahəngdarlığı, axıcılığı, musiqini və ən nəhayət yığcamlığı bu yazıda verə bilməyəcəyimin qorxusu dolub canıma. Kömək üçün Müşfiqə müraciət edirəm:

"Neyləyim ki, fikrim kimi qəşəng olsun nəğmələrim?
Parlaq bahar səmasilə həmrəng olsun nəğmələrim?
... Bir işıqlı, bir ətirli çələng olsun nəğmələrim?"

- sualına isə Müşfiqin cavabı:

Gecəm belə keçdi, səhərim gəlsin
Dadıma sanballı sözlərim gəlsin –

sözləri olur və sanballı sözlərini nadir çiçək dəstəsi kimi mənə uzadır.

Müşfiqin romantik, romantik olduğu qədər də bəşəri şeirlərini, misralarını təkrarlayıram. Yaddaşıma pərçimlənmiş, qanıma, iliyimə hopmuş misraları dadıma çatır. Bir zamanlar:

Şeir qalıbına, söz qalıbına
Əriyə-əriyə tökülən mənəm

- deyib zərrə-zərrə, qətrə-qətrə əriyərək şeirə dönən, şeirləşən Müşfiq yenidən öz şeiri ilə Müşfiqləşir xəyalımda.

Şeirləri kimi bir az çılğın, bir az coşqun, bir az dalğın, bir az vurğun, bir az yorğun, gah kədərli, gah fərəhli, gah ələmli, gah nəşəli görünən Müşfiqin şəkli canlanır gözümün önündə. Həmişə 29 yaşında qalan, həmişə cavan 100 yaşlı Müşfiqin şəkli. Və...

51 il bundan əvvəl həmin şəkli ilk dəfə gördüyüm o uzaq yaz günü düşür yadıma. Xatirələrim əlimdən tutub məni uşaqlıq çağlarıma, o günümə aparır.

...1957-ci ilin gözəl bir yaz səhəri... Həyətimizə su gəlmədiyindən vedrələri götürüb qonşu həyətlərin birindən su gətirməyə gedən anam... Nədənsə o gün mən də anama qoşulub suya gedirəm. Rəngi bilinməyən kiçik taxta qapını açıb xudmani həyətə daxil oluruq. Həmin gün o həyətdə gördüklərimin, həyətin ab-havasının uşaq yaddaşımda ömürlük qalacağı heç ağlıma da gəlmir. Uşaq marağı ilə ətrafı seyr edirəm. İnsanı sakitləşdirən, bu dünyadan ayıran bir sərinlik, bir səssizlik hökm sürür həyətdə. Yığcam talvara dırmaşan meynə, az qala bütün həyəti tutan tut ağacı, kiçik eyvanlı evin qabağında cərgə ilə əkilmiş qızılgül kolları... və bu sakitliyə xüsusi bir ahəng verən su şırıltısı... kimsəsiz həyət...

"Gül gülü çağırır, çiçək çiçəyi..."

Təxminən 50-55 yaşlı bir qadın eyvana çıxır. Anamın salamını alandan sonra kimlərdən olduğu ilə maraqlanır.

- Hidayətin, Zəhrəxanımın gəliniyəm. Bu da kiçik oğlumdur, -deyə anam məni göstərərək cavab verir.

- Aa, nə yaxşı. Bizim ki, sizinlə qohumluğumuz var. Sonra üzünü mənə tutur:

- A bala, məktəbə gedirsənmi?

Qəfil sualdan özümü elə itirirəm ki, ancaq başımın hərəkəti ilə "yox" deyə bilirəm. Sanki məni görmürmüş kimi dodağı altında nə isə deyərək evə girir və tez də qayıdır. Bu dəfə əlində kiçik bir kitab var.

- Al, bu kitabı sənə bağışlayıram, - səsi titrəyə-titrəyə əlavə edir – bacısı ölmüşün, Müşfiqimin təzə kitabıdır, 20 ildən sonra çıxan ilk kitabı... Məktəbə gedəndə oxuyarsan.

Solğun göy rəngli kiçik kitabçanı sevinclə alıram. Evə qayıdanda yolboyu dil-boğaza qoymur, anama sual dalınca sual verirəm:

- O kim idi? Müşfiq kimdir?

- Müşfiq şair olub. Bu da onun bacısı Balacaxanımdır.

- Şair nədir, Bəs Müşfiq indi haradadır?

Sonuncu sualım, deyəsən, su dolu vedrələrdən də ağır olur. Anam vedrələri yerə qoyub gözlərini rəngi bilinməyən qapıdan çəkməyərək cavab verir:

- Eh, nə bilim, a bala, güllələyiblər yazığı. Atan sənə hər şeyi başa salar...

... O uzaq yaz səhəri İsmayılzadələr ailəsinin son yarpağı xanım-xatın Balacaxanımın sinəsindən alovlanan qardaş yanğısından, sevgisindən bir qığılcım düşdü içimə. O qığılcım illər keçsə də öləziyib sönmədi, bir oda, alova döndü:

Bir od düşdü buluduna
Yandı könül eşq oduna
Qaldın hicran umuduna,
Ey qırılan şişə könül

O yaz səhəri qardaş saçı oxşamağa, qardaş boynu qucaqlamağa tamarzı bacı əlləri Müşfiq sevgisi ilə dopdolu bir toxum əkdi qəlbimə və içimdə bir Müşfiq sevgisi cücərdi. Zərif bir fidana döndü o toxum. Mən böyüdükcə o fidan da böyüdü, böyüdü, qollu-budaqlı bir ağaca döndü, budaqları Müşfiq misraları, yarpaqları Müşfiq dodaqlarından süzülən sözlər oldu o ağacın. Bu sevgi öylə bir sevgi ki:

Sevgi vardır oxudur qəlbidə bülbüllərinin.

Böylə bir sevgi mənim ruhumu oxşar kimidir.

Sonralar rəngi bilinməyən o taxta qapının yanından çox keçdim. Şəhərin başqa hissəsinə köçsək də tez-tez yolum o məhəlləyə, Dağlı məhəlləsinə düşürdü. Xalamgilə, bacımgilə gedəndə hələ də Müşfiqin 30-cu illərin dəbinə uyğun geyinən bacısı ilə ara-sıra rastlaşırdım və hər dəfə də ancaq salam verib yanından keçməklə kifayətlənirdim. Mənə vaxtilə Müşfiqin kitabını verməsini unutduğunu, qəlbimdə bir Müşfiq ocağı yandırdığından xəbəri olmadığını da yaxşı bilirdim. Dəfələrlə o qapını açmaq, o həyətə daxil olmaq, Müşfiq haqqında onun dilindən nə isə eşitmək, öyrənmək istəsəm də, hansısa bir hiss qarşımı kəsirdi. Yaralı bacı qəlbinə, ürəyinə toxunmaq istəməmək hissi idi bu. Mənə elə gəlirdi ki, bununla onun ağrı-acılarını daha da artıracağam. Amma o Bacının buna nə qədər ehtiyacı olduğundan, Müşfiq nəfəsi hopmuş dörd divar arasında tək-tənha ömür sürən o bacı dodaqlarının:

Nə yanar kimsə mənə atəşi-dildən özgə
Nə açar kimsə qapım badi-səbadan qeyri-

beytini pıçıldadığından da xəbərsizdim. Bilmirdim ki, üstündə Müşfiq barmaqlarının izini, istisini saxlayan taxta qapı hələ də Müşfiqin yolunu gözləyir. Hər dəfə açılanda inildəyir:

Gözlədim yolunu hava qarardı,
Bu qaranlıq hava ruhumu sardı.
Səndən qəmgin könül sevinc umardı,
Sən ey səadətim neçin gəlmədin?

Nə yazıq ki, bu gerçəkliyi çox gec dərk etdim. Artıq nə o Bacı var, nə o taxta qapı, nə də o həyət. O həyətdən gətirdiyimiz su da təbii ki, elə həmin gün qurtardı. Bəs o həyətdən özümlə gətirdiyim Müşfiq sevgisi?!!

Sevəndə də Müşfiqi oxudum, seviləndə də, sevinəndə də, kədərlənəndə də:

"Bəzən xəfif-xəfif, bəzən əsəbi
Günlər gəlib keçdi bir rüzgar kibi.
Fəqət sənin sevgin könlümdə qaldı,
Bir az da həsrətin artdı, çoxaldı
Getdikcə tutuşan alovlar kibi."

Böyləcə yepyeni bir Müşfiq dünyası kəşf etdim özümçün. Bizim dünyamızdan fərqli bir dünya, Müşfiq xəyallarının dünyası... O dünya, o "cahan ki, solmayan bir bağça-bağdır", o dünyada "gecə nə xoş gecədir, bir qara qız kimi tellicədir", "Göylərin lampası" "Ay sərxoş bir göz

Dəfələrlə o qapını açmaq, o həyətə daxil olmaq, Müşfiq haqqında onun dilindən nə isə eşitmək, öyrənmək istəsəm də, hansısa bir hiss qarşımı kəsirdi. Yaralı bacı qəlbinə, ürəyinə toxunmaq istəməmək hissi idi bu.

kimi, ulduzlar yaraşıqlı"dır. Hələ "buludlar, o dolğun qədəhlər, göylərin ovcunda bir yel əsincə titrər",

Qaçarlar ağlaya-ağlaya
Dönərlər bir şəffaf parçaya,

O dünyanın çayı "Dəli Kür, məzəli Kür, çayların gözəli Kür"dür. Dənizi də bambaşqadır. Fırtınalı, tufanlıdır, "Coşqun dəniz"dir, "daşqın dəniz"dir, "aşqın dəniz"dir, "şaşqın dəniz"dir. O dünyanın dənizində "hər dalğa bir kişnəyən bəyaz xallı at kimi"dir. "Tufan keçər, dalğalar susunca, həmən dəniz anasının qoynunda süd əmə-əmə uyuyan bir yavruya dönər". O dənizin üfüqləri də üfüq deyil, "qaş"dır və Müşfiq də "Hər səhər, hər axşam, hər axşam, hər səhər" suların dil-dil ötdüyü o qumlu sahilləri gəzər, xəyalı "qaşlardan qaşlara süz"ər. "İlhamının yelkəni" isə sevgilisinin "zərrin saçın"a dönərək "sevdalar ölkəsində"ki "sevgi dəryası"nın "xırçın suları"nda üzər.

Müşfiq xəyallarının dünyasında hər şey gözəldir. O dünyanın insanları da fərqlidir bizim dünyanın adamlarından. O dünyada:

Hər üfüqdə bir həvəs, hər bucaqda bir umud

İnsanlar daha məsud,
Duyğular daha incə, fikirlər daha dərin,
Ürəklər daha sərin.
İnsanları vüqarı, tələbi daha yüksək.
Yolumuzdan daş-kəsək
Təmizlənmiş bir az da...

Ona görə də Müşfiq hamının bu dünyaya sevgi ilə, məhəbbətlə baxmasını istəyirdi və bilirdi ki, bu dünyanın qayğıya, sevgiyə ehtiyacı var. O sevgi dolu, duyğu yüklü dünyanı addım-addım, qarış-qarış gəzmək istəyirəm. Müşfiqin "bəstəkar küləklər"ini, o "dünyanı dolaşan bəxtiyar küləklər"i səsləyirəm:

O dünyadakı "çadralı analar", "papaqlı atalar"la dərdləşmək, "ağ kəlağayılı qız"larla, o dünyanın insanları ilə söhbətləşmək, ünsiyyət yaratmaq istəyirəm. "Küləklər"in məni "Sevgi dəryasında ruhu bir ada"ya dönən Müşfiq adasına aparmasını istəyirəm. O adaya ki, sahilində "bir bölük uşaqdır şən ləpələr", və "əllərində top kimi ay" oynayırlar.

Müşfiqin 12 ilə qurduğu xəyallar dünyasından çətinliklə də olsa Müşfiqin cəmi 29 il yaşadığı gerçək dünyaya qayıdıram. Müşfiqin "keçən günlərimi vərəqləyərkən" onun yaşadığı ağrılı-acılı günlərlə, aylarla, illərlə qarşılaşıram.

1908-ci ilin yazının son, yayının ilk ayında – iyunun 6-da "Füsuqi" təxəllüsü ilə şeirlər yazan Mirzə Əbdülqədir İsmayılzadənin ailəsində bir körpə dünyaya göz açdı. Adını Mikayıl qoydular. Evdə özündən böyük iki bacısı, bir qardaşı da vardı. İki aylıq olarkən anası vəfat etdi. Ağbirçək nənə südəmər körpəni qucağına alıb qonşu qapılarını döydü. Körpə uşaqlı analar bu anasız tifilə süd verdi. Beləcə böyüdü uşaq. Sonralar yaradıcılığının ilk illərində 19 yaşlı Müşfiq o günləri belə xatırlayacaqdı:

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Tezliklə nənə və ata da dünyasını dəyişir. Dörd körpə yetimə dayı baxır. Dayının isə ailəsi böyük, gəliri az idi... Kiçik Mikayıl küçədə siqaret satır və bəlkə də öz ilk şeirini o vaxt yazır, müştəri səsləyəndə:

"Gəl a müsəlman, urus,
Əla, xoroşi paprus."

ardı gələn sayımızda

Elşən RZAYEV

BALIQ YEMƏK ZEHNİ ARTIRIRMI?

Qidalanma mütəxəssisləri orqanizm üçün heç bir əks təsiri olmayan balıq ətini təkidlə tövsiyə edirlər. Balıqda bol miqdarda protein, vitamin və minerallar var. Duzlu suda yaşamasına baxmayaraq balıq ətində çox az miqdarda duz vardır. Hətta balıqların bir çox növünü həkimlər duzsuz yemək rejimlərində məsləhət görürlər.

Yağlı balıqlarda olan lipitlərin insan səhhətinə heç bir zərərləri olmadığı kimi vucudu ürək və damar xəstəliklərinə qarşı qoruyur. Çox miqdarda balıqdan istifadə olunan ölkələrdə aparılan anketlər də bu fikri dəstəkləyir.

XIX əsrdə kimya mühəndisi olan iki Alman tədqiqatçı beynin zehni fəaliyyətini davam etdirə bilməsi üçün lazım olan kimyəvi elementin "fosfor" olduğunu bildirdilər. Hətta bu düşüncələrini "fosfor olmadan beyin sağlam fəaliyyət göstərə bilməz" deyərək iddialı bir tərzdə təqdim etdilər.

O ərəfədə digər bir elm adamı da balıq ətinin fosfor baxımından çox zəngin olduğunu kəşf etdi. Bununla da balıq ətinin beynə, dolayısı ilə zehnin inkişafına çox faydalı olması fikri hamı tərəfindən mənimsəndi.

Əslində fosfor insan orqanizmi üçün həqiqətən də lazımlıdır. Bu isə yetərli miqdarda ət, süd, taxıl və tərəvəzlər ilə birlikdə balıq əti vasitəsilə də təmin edilir. Fosfor vücuddakı sümüklərdə və dişlərdə kalsiumla birləşmiş halda toplanır. Fosfor çatışmazlığı uşaqların qol və ayaq sümüklərində qüsurlara, yeniyetmələrdə isə sümük yumşalmasına səbəb olur.

Əczaçılıqda istifadə olunan fosfor isə ağ fosfordur. Ağ fosfor əvvəllər fosforlu bitki yağı və fosforlu balıq yağı şəklində insanlara sinir qüvvətləndirici dərman kimi verilirdi. Sonralar bu kimi dərmanların zəhərlənmələrə səbəb olduğu müəyyənləşdirildi və istifadədən qaldırıldı.

Bugünə qədər aparılan araşdırmalarda fosforun beynimizə lazım olan digər kimyəvi elementlərin yanında bir o qədər də faydasının olmadığı və beyin funksiyalarını artırmadığı isbatlanmışdır. Nəticə olaraq deyə bilərik ki, balıqda ciddi miqdarda fosfor yoxdur, olsa belə fosforun çoxluğu insanın zehnini artırmır, yalnız çox ciddi zəhərlənmələrə səbəb ola bilər.

DƏRİMİZ OLMASAYDI NƏ OLARDI?

Vücudumuzun həyati əhəmiyyət kəsb edən orqanlarını sayın desələr, dərimiz yadımıza da düşməz. Halbuki dərimiz vücudumuzun ən həyati əhəmiyyət kəsb edən orqanlarındandır. Dərinin əhəmiyyəti o qədər böyükdür ki, yanma nəticəsində ⅓ –nin yox olması , hətta ⅓ –nin yağlıboya ilə boyanaraq üzərindəki dəliklərin örtülməsi həyat üçün təhlükə yarada bilər. Bundan başqa dərimiz vücudumuzun ən böyük orqanıdır. Gənc bir insanın dərisi 4-5 kq ağırlığındadır və təxminən 7 m^2 sahəni əhatə edir.

Dərimiz digər bütün orqanlarımızdan daha sürətli böyüyür və insan həyatı boyunca davamlı olaraq özünü yeniləyir. Davamlı özünü yeniləyən bu orqanın insan yaşlandıqca qırışmasının səbəbi isə altındakı əzələlərin gücünü itirməsidir.

Dərimiz o qədər mükəmməl bir orqandır ki, kəsildiyi və ya yaralandığı zaman ətrafındakı sağlam toxuma hüceyrələri sürətlə çoxalaraq bu yaranı, ya da kəsiyi örtər. Kəsilən yerin iki tərəfi tikişlə bir-birinə yaxınlaşdırılarsa, örtüləcək məsafə yaxınlaşdığı üçün sağalma daha tez olar. Bəzən bu açıqlıq nə qədər örtülürsə-örtülsün aradakı toxuma kifayət qədər özünü bərpa etmədiyi üçün dərimizdə qalan bu yara izi ömür boyu vücudumuzda qalır.

Dərimizin qalınlığı 1-4 mm arasında dəyişir. Ən qalın dərimiz ovcumuzun içində və ayaqlarımızın altında, xüsusən də dabanlarımızdadır. Əlləri ilə çalışan şəxslərin əllərində və ya ölçüsünə uyğun ayaqqabı geyinməyənlərin ayaqlarında mazollar yaranır. Bunlar dərinin çox sərtləşmiş şəklindən başqa bir şey deyildir. Göz qapaqları üzərindəki dəri isə vücudun ən incə dərisidir.

Əgər vücudumuz dəri ilə örtülmüş olmasaydı yaşamağımız düşünülə bilməzdi. Dərimiz bizi yalnız istiyə, soyuğa qarşı deyil, eyni zamanda sürtünmələrə, nəmliyə, günəş şüasına, zərərli bakteriyalara və xaricdən gələcək təhlükələrə qarşı da qoruyur. Dərimizin hər tərəfində soyuq və istiliyi hiss etməyimizə yardım edən toxunmaların sayı 600000 –dən çoxdur.

Dəri tərləmə yoluyla nəfəs alır, toksinləri artaraq vücudun hərarətini mühafizə edir. 1 sm^2 -lik dərinin səthində minlərlə tər dəliyi yerləşir. Hər gün buxarlanaraq dərimizdən çıxan tor orta hesabla təxminən 1 litrdir.

Digər orqanlarımızdan fərqli olaraq dərimiz çox qısa zamanda aşınır. Səthdəki hüceyrələr bir neçə həftə ərzində ölür və yox olur, ancaq aşınan dərinin yerinə davamlı olaraq yenisi gəlir. Heç başımızdakı kəpəyin haradan gəldiyini düşündünüzmü? Kəpəklər əslində dərimizin kiçik pulcuqlar halında parçalanıb düşməsindən başqa bir şey deyil.

MƏN HEYDƏR ƏLİYEV İRSİNİ ÖYRƏNİRƏM" MÖVZUSUNDA MÜSABİQƏ

Gəncliyə Yardım Fondu, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Bakı Şəhər üzrə Təhsil İdarəsinin birgə imzaladığı əsasnaməyə müvafiq olaraq Ümummilli Lider Heydər Əliyevin 85 illiyinə həsr olunmuş ***"Mən Heydər Əliyev irsini öyrənirəm"*** adlı Bakı şəhər məktəbliləri arasında bilik müasbiqəsi keçirildi.

Əsas məqsədi böyüməkdə olan gənc nəsil arasında Heydər Əliyev irsini təbliğ etmək olan bu bilik olimpiadasının final mərhələsi aprel ayının 24-də Azərbaycan Respublikası Gəncliyə Yardım Fondunun Konfrans Zalında saat 12:00 keçirildi. Tədbirin açılışında GəncliyəYardım Fondunun prezidenti ***Ahmet TECİM,*** Prezidentin İcra Aparatının nümayəndəsi ***Rasim Mirzəyev*** və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi ***Raqif ABBASOV*** çıxış edərək bilik müsabiqəsinin iştirakçılarına müvəffəqiyyətlər arzuladılar.

Bilik müsabiqəsi iştirakçıların gərgin mübarizəsi şəraitində keçdi. Hər 3 mərhələdə məktəblilərə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif sahələrində suallar verildi. Yekunda I yerin qalibi ***Nail Məmmədov,*** II yerin qalibi ***Elnur Ağayev*** və III yerin qalibi ***Məmmədəli Asifli*** oldular. Qaliblərə tutduğu yerlərə müvafiq olaraq 150, 100 və 50 manat məbləğində pul mükafatı və müxtəlif hədiyyələr təqdim olundu. Bundan başqa müsabiqədə iştirak edən bütün şagirdlər də mükafatlandırıldı.

MƏCBURİ KÖÇKÜN MƏKTƏBLİLƏRİ İLƏ GÖRÜŞ

Məlum olduğu kimi 88 il əvvəl 23 apreldə fəaliyyətə başlayan Türkiyə Böyük Millət Məclisinin açılışını Türkiyə cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürk uşaq günü kimi tarixiləşdirərək uşaqlara ərməğan etmişdir. Bu müasibətlə hər ilin bu günü müxtəlif bayram tədbirləri keçirilir. Qardaş Türkiyə cümhuriyyətinin Milli Suverenlik və Uşaq Bayramı münasibəti ilə Gəncliyə Yardım Fondunun Konfrans zalında 23 aprel 2008-ci il tarixdə Ağdam rayon 149 saylı köçkün orta məktəbinin şagirdlərinin iştirakı ilə "uşaq şənliyi" tədbiri keçirilmişdir.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfirliyinin təhsil müşaviri ***Selahetdin DİKMEN,*** 149 saylı məktəbin direktoru Arzu və Gəncliyə Yardım Fondunun prezidenti ***Ahmet TECİM*** çıxış etmişdir. Selahetdin Dikmen öz çıxışında Türk xalqının mübarizliyindən, qazandığı zəfərlərdə millətin möhkəm iradəsindən nümunələr göstərərək, böyüməkdə olan nəslin bu hiss və duyğularla tərbiyə olunmasının əhəmiyyətindən danışdı. Ağdam rayon ***149 saylı köçkün məktəbinin direktoru Arzu xanım*** öz çıxışında belə bir tədbirin keçirilməsinə şərait yaratdıqlarına görə GYF-nin rəhbərliyinə və kollektivinə minnətdarlığını bildirdi. Fondun prezidenti A. Tecim isə öz çıxışında ulu öndər H. Əliyevin ***"Bir millət, iki dövlət,"*** M.K. Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir "*** kəlamlarını sitat gətirərək, iki qardaş ölkənin bu təməllər üzərinə qurulmuş münasibətlərinin gələcək nəsillər tərəfindən daha da möhkəmləşdiriləcəyinə əmin olduğunu vurğulamışdır.

Daha sonra məktəblilərin ifasında vətənpərvərlik ruhunda şeirlər səslənmiş və mahnılar ifa olunmuşdur. Tədbirin sonunda isə məktəblilərə Gəncliyə Yardım Fondu tərəfindən məktəb ləvazimatından ibarət hədiyyələr paylanmışdır.